# AZƏRBAYCANIN İLK QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI

Bakı – 2013

*Bu kitab Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə «AXC (1918-1920-ci illər) dövründə Azərbaycanın ilk Qeyri-Hökumət Təşkilatları» layihəsi çərçivəsində hazırlanıb.*

*Layihəni həyata keçirən təşkilat:*
*«Milli Jurnalistika Konqresi» İctimai Birliyi*

*Materialları hazırlayan*
*və elmi redaktor:* **Nəsiman Yaqublu**
*tarix elmləri namizədi*

Bu kitab Azərbaycanda fəaliyyət göstərmiş xeyriyyə qurumlarının – ilk qeyri-hökumət təşkilatlarının yaranma tarixinə və fəaliyyətinə həsr edilib. Kitabda Azərbaycanın tanınmış milyonçu-xeyriyyəçiləri olan H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Nağıyev, M.Muxtarov və digərləri haqqında məlumatlar verilib.



# AZƏRBAYCANIN İLK QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI

**Rusiyada yaşayan müsəlmanların** mədəni – maariflənmə hərəkatına ilk dəstəyi edən, 1883-cü ildə Bağçasarayda “Tərcüman”ı nəşr etmiş İsmayıl bəy Qaspiralı oldu. O, 1884-cü ildə məktəblərdə yeni tədris üsulunu (üsuli-cədid) yaratmaqla Rusiyanın müsəlman əhalisinin yeni biliklərə sahib olmasında mühüm rol oynadı. İ. Qaspiralı özü isə “Rusiya müsəlmanlarının mədəni başlanğıcı” məqaləsində Rusiya müsəlmanlarında milli şüurun oyanışında ilkin olaraq M. F. Axundovun və H. Zərdabinin adını çəkir.

Həqiqətən də böyük mütəfəkkirlər olan M. F. Axundov və H. Zərdabi millətin savadlanmasında, milli şüura sahib olmasında önəmli rol oynadılar. H. Zərdabinin 1875-1877-ci illərdə ümumilikdə 56 sayı çıxan “Əkinçi” Rusiyada ilk türk qəzeti oldu.

H. Zərdabi “Əkinçi”dəki yazılarda millət, onun birliyi və bütövlüyü problemlərinə toxunurdu. Məhz bu qəzetin səhifələrində ilk dəfə olaraq türk milləti anlayışına rast gəlindi, dilin və dinin müdafiəsi üçün siyasi proqram hazırlandı, millətin inkişafı və müdafiəsi üçün yeni üsullu məktəblərin və mətbuatın yaradılması ideyası irəli sürüldü. Və ilk dəfə olaraq türk millətinin birliyi fikri önə çəkildi. “Əkinçi” qəzetinin səhifələrində yazılırdı: “Əgər bizim Bakı Quberniyasında 100 min insan yaşayırsa, onlardan cəmisi 10 mini ermənidir. Ruslar isə sayca azdır. Bakı quberniyasında cəmi bir gimnaziya var və orada 500 nəfər təhsil alır.

Onlardan 250-si rus, 150-si erməni, 100-ü isə müsəlmandır" (17. 4. 11. 1875).

Belə bir şəraitdə H. Zərdabi millətin maariflənməsi, təşkilatlanması haqqında düşünür və ciddi mübarizə aparırdı. Böyük mütəfəkkir H. Zərdabi bütövlükdə özünü xalqa, onun elminə, maariflənməsinə həsr etmişdi. O, ilk Azərbaycan qəzetini nəşr etməzdən öncə Azərbaycanın ilk xeyriyyə təşkilatını (oxu: qeyri – hökumət təşkilatları) yaradıb, ciddi fəaliyyətlə məşğul olurdu.

**1872-ci ildə** məhz böyük mütəfəkkir H. Zərdabinin fəallığı ilə Azərbaycanda ilk xeyriyyə təşkilatının əsası qoyuldu. Lakin bu o qədər də asan bir işə çevrilmədi. H. Zərdabi sonradan "Həyat" qəzetində nəşr etdiyi yazısında müsəlman toplumunun bu vacib sahəyə diqqət yetirmədiyindən, biganə və laqeyd yanaşdığından təəssüflə şikayətlənirdi.

H. Zərdabinin təsis etdiyi xeyriyyə təşkilatının nizamnaməsinin birinci maddəsində bu sözlər yazılmışdı: "Zaqafqaziyanın *müsəlman əhalisinin kasıblığının artdığını* nəzərə alıb, biz heç bir vəsaiti olmayan təhsil alanlara kömək cəmiyyəti yaradırıq". Böyük çətinliklə yaradılan bu cəmiyyətin təəssüf ki, fəaliyyəti uzun müddətli olmadı. Bir ildən sonra, 1873-cü ildə cəmiyyət bağlanmaq məcburiyyətində qaldı.

Lakin böyük H. Zərdabinin başladığı bu fəaliyyət təsirsiz qalmadı. XIX əsrin sonu XX əsrin əvvəllərində yeni cəmiyyətlər təsis edilməyə başladı. Azərbaycanın tanınmış milyonçuları olan H. Z. Tağıyev, Ş. Əsədullayev, M. Muxtarov, M. Nağıyev, İ. Aşurbəyli və digərləri bu sahədə böyük işlər gördülər. Məhz onların ciddi dəstək verdiyi "Bakı Xeyriyyə Cəmiyyəti", "Nəşri – Maarif", "Nicat", "Səfa", "Səadət" kimi cəmiyyətlər millətin imkansız övladlarının təhsilində, elmlənməsində əhəmiyyətli rol oynadı. Bu fəaliyyət yalnız elmi, təhsili əhatə etmirdi. Eyni zamanda mədəniyyətin,





incəsənətin, musiqinin, ədəbiyyatın, tibbin, memarlığın inkişafında da biz bu görkəmli və imkanlı xeyirxah məqsədlər güdən fəaliyyətlərinə rast gəlirik. Böyük bəstəkar Ü. Hacıbəylinin "Leyli və Məcnun" operası məhz H. Z. Tağıyevin xeyirxahlığı ilə onun tikdirdiyi teatr binasında tamaşaya qoyulmamışdımı?

Diqqətlə izlədikdə görürük ki, dövrün əksər ziyalıları da xeyriyyə təşkilatlarının fəalları idi və böyük işlər görürdülər. H. Ağayev, M. Ə. Rəsulzadə, Ə.M. Topçubaşov, N. Nərimanov, S. Hüseyn, Ə. Cavad və digərləri müxtəlif xeyriyyə tədbirləri ilə məşğul olur, xalqımızın ayrı-ayrı sahələrdəki problemlərinin həllində önəmli rol oynayırdılar.

Bu fəaliyyətə biz sonradan – 1918-1920-ci illərdə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə də rast gəlirik.

**1991-ci ildə** Azərbaycan müstəqillik əldə etdikdən sonra yenidən xeyriyyə təşkilatlarının (qeyri-hökumət təşkilatları) fəaliyyətinə maraq və ehtiyac yarandı. Bu gün Azərbaycanda **Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması** və fəaliyyəti olduqca önəmlidir. Bu, əslində XIX əsrdə H. Zərdabi tərəfindən əsası qoyulmuş xeyriyyəçilik işinin – yəni xalqın problemlərinin həllinə və inkişafına dəstəyin yeni formada təzahürüdür.

**Azay Quliyev**
***Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri***

# AZƏRBAYCANIN İLK XEYRİYYƏ TƏŞKİLATININ YARADICISI

## Həsən Bəy Zərdabi

*(1837 – 1907)*



*• Azərbaycan mətbuatının əsasını qoyan Həsən bəy Məlikzadə (Məlikov) Zərdabi 1837-ci ilin noyabr ayının 12-də anadan olub.*

*• İlk təhsilini mədrəsədə alıb, ərəb və fars dillərini öyrənib. Sonra Tiflis gimnaziyasında təhsil alıb.*

*• 1861-ci ildə Moskva Universitetinin fizika-riyaziyyat fakultəsinə daxil olub. Təhsilini başa vurduqdan sonra Azərbaycana qayıdaraq dövləti işlərdə çalışıb.*

*• 1873-cü ildə o, ilk Azərbaycan teatrının əsasını qoyub.*

*• O, eyni zamanda Bakı Gimnaziyasında pedaqoq olaraq çalışıb.*

*• 1875-ci ilin iyul ayının 22-də H. Zərdabi böyük çətinliklə "Əkinçi" qəzetini nəşr edib.*

*• 1877-ci ilə qədər nəşrini davam etdirən bu qəzet çar hökumətinin təzyiqlərinə görə fəaliyyətini dayandırır. H.Zərdabi sonradan "Kaspi" qəzetində də fəallıq göstərib.*

*• H. Zərdabi 1907-ci ildə vəfat edib.*





## CƏMİYYƏTİ – XEYRİYYƏ BİNASI

**Bakıda müsəlman cəmiyyəti** – xeyriyyəsi açılıb və biz müsəlmanlar bu xeyir işə artıq şad oluruq ki, guya bir böyük iş görmüşük. Bivucudi ki, bizim elm zəmanəmizdə heç bir millət yoxdur ki, onun nə ki bir, hətta bir neçə cəmiyyəti – xeyriyyəsi olmasın və onlar 10 və dəxi artıq illərdir ki, xeyir iş görməyə məşğuldurlar. Cəmiyyəti – xeyriyyə açmaq çətin deyil. Ələlxüsus bu halda, amma onun bina tutub qalmağı və tutduğu işlərin artıq mənfi olmağı çətindir. Çünki hər bir xeyir işin artıq nəfi olmağı pul islədir və belə xeyir işə artıq pul verən çox az olar. Ələlxüsus, bizim müsəlmanlardan. Çünki xeyir iş görmək qanacaq islədir və qanacaq elm islədir, amma heyf ki, bizim müsəlmanlarda azdır. Ondan başqa hansı işin artıq xeyir olmağını da bilmək lazımdır. Məsələn: bizim Bakı şəhərində hər ildə mərsiyəxanlar üçün neçə min manat pul yığılır və fağır – füqəra adına ondan da artıq xərc olur. Amma onlardan millətə heç bir xeyir yoxdur, hətta zərəri də var. Çünki bu səbəbə ilbəil mərsiyəxanların və qeyri dilənçilərin qədəri də artır. Amma o pullar ilə bir miskinxana açıb orada dilənçilik edənlərdən 10-15-ni yığıb, onlardan yemək, içmək, geyinməyini verib, sənətlər öyrətsək, bir və ya iki ildən sonra bu dilənçilər sənətkar olub, bizə baş ağrısı verməzlər və qeyrilərə də kömək edərlər. Çifayda, bizim adətlərimiz elə düşübdür ki, hər kəs ehsan edəndə öz qanacağı ilə edir və dilənçiyə pulu öz əli ilə verir. Ona görə küçələrin hər tinində bir neçə dilənçi daima durub, oradan keçənlərin yolunu kəsir. Pəs cəmiyyəti – xeyriyyə bina tutub baqi qalmaqdan və artıq nəf gətirməkdən ötrü lazımdır: qədim adətlərimizi dəyişdirib zəmanəyə

müvafiq iş görmək. Biz qədim adətlərimizi dəyişdirməmək, nə qədər bizləri geri salmağını sübut etməkdən ötrü bizim qonşu ermənilər və biz müsəlmanlar Bakıda keçmişdə cəmiyyəti – xeyriyyə açmağından danışacağıq.

**Bu halda Bakıda olan ermənilərin cəmiyyəti – xeyriyyəsi 40 il bundan əqdəm açılıbdır**. O vaxtdan Bakıda erməni çox az idi. Bir neçə yüzdən artıq deyil idi. Əsl Bakı ermənisi 10-15 evdən artıq yox idi. Sonra quberniya buraya gələndə hökumət əmələsi və qeyri dadüstəd edənlər də gəlmişdi. O vaxtda onların oxumuşları da bizimkilərdən artıq idi. Onlardan (universitet də) darülfünun da qurtaranlar var idi. Bunların birisi – doktor Rustamyan cəmiyyəti – xeyriyyə üçün nizamnamə tərtib edib, bir neçə adam ilə ərizə verib onu təsdiq etdirəndən sonra cəmiyyəti – xeyriyyəni açdılar və adamlar bir yerə cəm olub Bakıda olan ermənilərin hamısını oraya dəvət edib, dəftər açıb pul yığdılar. Cəmiyyəti bina edən Rustamyan və qeyri zikr olan ərizəyə qol çəkənlər dəftər üzü ilə səpki edib, hər kəsdən özləri müəyyən elədiyi məbləği istəyib aldılar və heç bir kəs olmadı ki, onlara cavab etsin ki, mən bu məbləği vermirəm və ya verə bilmərəm. Hər kəs növbət ilə pulunu verib, qəbzini alıb ötürdü. O vaxtda Bakıda üç Qarabağ ermənisi suçuluq edirdi, yəni eşşəklə su daşıyıb satırdı ki, onlardan ikisi sonra milyonçu oldular. Üçüncüsü Karapet qeyrətli, xeyirxahi – millət olduğuna suçuluqda vəfat etdi. Cəmiyyəti – xeyriyyəni bina edənlər məclis açdığını bu Karapet eşidib, gəlib eşşəyini qapıda bağlayıb, gedib məclisə daxil olub təvəqqe elədi ki, onu stolun yanına qoysunlar.

Elə ki, ona yol verdilər, basa-basa qabağa çıxıb Rustamyandan xəbər aldı ki, bu pul nə üçün cəm olur?

Ona cavab verdilər ki, xahiş edirik məktəbxanalar açıb fəqir – yetim erməni uşaqlarını oxudaq. O vaxtda Karapet





çarıqlı ayağının birisini qalxızıb stulun üstə qoyub çarığının bağını, sonra dolağını açıb şalvarının balağını yuxarı çəkib baldırından dəridən tikilmiş bir təlatını açıb, doktor Rustamyana uzadıb dedi: mənim övladım yoxdur, ermənilərin hamısının uşaqlarını mən özümə övlad hesab edirəm və onların oxumağını çox istəyirəm. Sabahlar eşşək üstə su daşıyanda küçələrdə qoltuqlarında kitab məktəbxanalara gedən erməni uşaqlarını görəndə çox şad olram. Ona görə bu təlatının içində olan pulu mən bir neçə ildir cəm etmişəm, bu cəmiyyəti – xeyriyyəyə bağışlayıram. Bu sözü eşidib tamam məclis Karapetə mərhaba dedi. Təlatının içindən çıxan pulu sanayıb gördülər ki, min manata qədərdir. Məclis dübarə mərhəba deyəndən sonra Karapet təlatını götürüb, gedib eşşəyin üstə oturub oxuya – oxuya su daşımağa getdi. Bu tövr bina olan cəmiyyəti – xeyriyyə indiyəcən baqi qalıbdır və bu 40 ilin müddətində çox yetim füqəranı oxudub adam edibdir. Bu halda ermənilər məzkur Karapetə rəhmət oxuyurdular. Amma onun suçu yoldaşlarının ki, sonra milyonçu olmuşdular, yurdları xaraba qalıbdır.

**Bir neçə il bundan sonra, 1871-ci il sənədə mən də bizim müsəlmanlar üçün bir belə cəmiyyəti – xeyriyyə nizamnaməsi tərtib edib** və bir neçə qeyri adamlara da onun ərizəsinə qol çəkdirib, sərdara verib təsdiq elətdirdim. Amma mənim çağırışıma nə ki, bir qeyri müsəlman, hətta ərizəyə qol çəkənlər də gəlmədi. Axırda bir neçə adamı vasitə salıb, qazı Molla Cavad Axunddan təvəqqe elədim ki, şəhərin mütəşəxxislərini öz mənzilinə çağırıb bu xeyir iş bina olmağa səbəb olsun. Həzərat cəm olanda onlara cəmiyyəti – xeyriyyə nədir və onun gələcəkdə xeyri nə olacağını ərz elədim və cənab Hacı Zeynalabdin Tağıyev də bu barədə çox danışdı. Amma pul sözü araya gələndə hacılar iztiraba düşdülər və onların birisi: "Bu xeyir işə bir xeyir duaçı da

gərəkdir. Təvəqqe edirəm məni belə duaçı hesab edəsiniz" – deyib, durub getdi. Bir qeyri hacı durub "abidəstə gedirəm" – deyib çıxıb qaçdı. Sonra məclisdə qalan əşxas bir-birinə baxıb təşrif apardılar. **Biz məclisdə olan 3-4 adamlar da onlardan sonra durub getdik**. Mən dəftərləri qoltuğuma vurub mənzilimə gedəndən sonra bizim bədbəxt müsəlmanların fikrindən bir neçə gün xörək yeyə bilmədim və gecələr mənə yuxu haram oldu. Qardaşlar, bizim və qonşularımız ermənilərin indiki halına baxıb diqqət edin! Onda görərsiniz ki, zikr olan 34 ilin müddətində onlar bizdən nə qədər irəli gediblər və bunun ümdə səbəbi onların cəmiyyəti – xeyriyyəsi olubdur. Bəs deyilmi, haçan biz ayılacağıq?

***"Həyat" qəzeti, N 107, 25 noyabr 1905-ci il***

**– 2–**

**Keçən 107-ci nömrədə** Bakıda müsəlman cəmiyyəti – xeyriyyəsi bina olunmaqdan danışanda bizim Bakı mütəxəssisləri bu xeyir işə necə baxdıqlarından və məclisdən qaçdıqlarından danışdıq. Doğrudur, bizim Bakı qardaşlarımızın belə öz xeyrini qanmadığı məni çox soyudub, həvəsdən saldı. Amma mən ümidimi Qafqaz vilayətinin qeyri şəhərlərinə bağlayıb, oralara da gedib ciddü – cəhd etməyi özümə borc bildim. Çünki cəmiyyəti – xeyriyyə bircə Bakı üçün açılmayır idi. Tamam Qafqaz üçün bina olurdu. Yayın başında gimnaziyada olan şagirdlərimin imtahanını qurtarandan sonra bir qaytanlı dəftər qayırıb notariusa möhürlədib yola düşdüm.

**O vaxtda bizim Qafqazda üç dövlətli müsəlman sakinləri olan şəhər var idi.** Birisi Bakı idi ki, təzə





qubernatornişin olmuşdu. Birisi Şamaxı idi ki, qubernator Bakıya köçmüş isə də, 1859-cu sənədə zəlzələdən çox ziyanlıq dəymiş isə də o qədər təvanadan düşməmiş idi və birisi də Şuşa şəhəri idi ki, oranın xanzadə və bəyzadələri artıq təvanalı idilər. Çünki onların yerləri və rəiyyətləri qeyri yerlərdə olan xanzadə və bəyzadələrindən artıq idi və onların belə artıq olmasına səbəb oranın axırıncı xanı Mehdiqulu xan olmuşdu. Rus dövləti bizim vilayəti alandan irəli bizim vilayətdə müsəlman xanları var idi və onların hamısı rus ilə dava edib, basılıb qaçıb İrana getdiyinə onların, həmçinin onlar ilə qaçan bəyzadələrin yerlərin və rəiyyətlərin xəzanə zəbt edib, amma Qarabağ xanıdava etməyib. Ona görə rus dövləti qaçan xanların hamısını dərhal xaric edib yerlərinə rus hakimi təyin edib. Bircə Qarabağın xanını öz xanlığında qoyub və rus tərəfindən general Mədətovu oraya nazir qoyub. Çünki bu Mədətov oranın bəyzadələrindən imiş və özü də rus zakonundan xəbərdar imiş. Ona görə onun məsləhəti ilə Mehdiqulu xan Qarabağın kəndlərini və yerlərini öz xanzadə və bəyzadələrinə təəllüqlərilə təqsim edib və məxsusiyyət ixtiyarı veribdir. Çünki keçmişdə bizim Zərdab kəndi Şivan xanlığına təəllüq olub və mən Şamaxının beş klaslı məktəbxanasında təlim aldığıma görə mənim Şamaxıda aşna – dostum və qohum - əqrəbam çox idi. Bu səbəblərə görə Şamaxıya artıq ümid olub cəmiyyəti – xeyriyyə işini oradan başladım. Aşna – dostlar ilə görüşüb danışandan sonra **mərhum Kərimbəy Hüseynbəyovun** otağına Şamaxının mütəşəxxislərini dəvət edib, onlar cəm olandan sonra biz müsəlmanlar qonşumuz ermənilərdən geridə qalıb, onlara möhtac olmağımızın səbəbi bizim elmsizliyimiz olduğundan və elm təhsil etməkdən ötrü cəmiyyəti – xeyriyyə bina eləmək vacib olduğundan danışıb, sonra dəftəri açıb stol üstə qoydum. Həzərat Bakının

milyonçuları kimi qaçmayıb, bir-bir gəlib dəftərə qol çəkdilər. Bu tövr bir neçə gün dalbadal gözə görünən adam ları çağırıb qol çəkdirdik. Çünki mən səfərdə olduğuma pulu özüm ilə gəzdirməyə ehtiyat edirdim, ona görə hər kəs qol çəkəndə borclu olurdu ki, vəd elədiyi məbləği sentyabr ayının başında Bakıya cəmiyyəti – xeyriyyənin adına göndərsin.

Dəftər üzilə, zəlsələdən xaraba qalan, quberniya köçdüyünə gələcəyə ümidi olmayan Şamaxıdan ildə iki min manata qədər cəmiyyəti – xeyriyyə üçün məbləğ vüsul oldu.

**Şamaxıdan yayın istisində**, toz və istinin qorxusundan gecələr yol gedib, gündüzlər xarabaya oxşayan poçtxanalarda çay və yumurtadan qeyri yeməyə bir qeyri şey tapmayıb, dincəlib Gəncə və Tiflis şəhərlərində, oraların sakinləri yaylaqlarda olduğuna bir neçə adamdan artıq tapmayıb, onlara da dəftərə qol çəkdirib İrəvan və Naxçıvan şəhərlərinə gedib orada da bir neçə adama qol çəkdirib, Naxçıvandan poçt at ilə işlədiyinə Qarabağın yaylaqlarından at ilə gedib, Şuşa şəhərinə gəlib mərhum Qasımbəy Mehmandarovun mənzilinə düşdüm. Şuşa şəhəri yaylaq olduğuna o vaxt da Qarabağın ağa və bəyzadələri hamısı orada idi; çünki onlar bir-birləri ilə ədavət edib danımayırdılar, ona görə onları bir yerə yığmaq mümkün olmadı. Labüd qalıb onları bir-bir görməkdən ötrü 10-15 gün orada qalıb hər gün də dəftəri qoltuğumuza vurub qapı-qapı gəzməyə başladıq. Əvvəlinci günü Qasımbəy və bir neçə qeyri adamlar ilə ağaların böyüyü H... ağanın qulluğuna gəldik. Onun qulluqçuları dəstə ilə qabağımıza çıxıb ehtiram ilə ağanın qulluğuna apardılar. Bir az danışıqdan sonra cəmiyyəti – xeyriyyədən söz başlandı. Ağa cavab verdi ki, bir qəpik də verə bilmərəm. Sonra hərarət edib buyurdu: "ay kişi, ermənilər uçqulla açır ver ruslar kilisə tikdirir ver, Rusiyyanin nə bilim harasında bir şəhər yanıbdır ver, mən bunların hansına verim. Hamı





deyir ki, çox yaxşı işdir. İndi siz də deyirsiniz ki, yaxşı işdir. Elə deyək doğru deyirsiniz. Pəs dünyada hər nə yaxşı var mən verim? Yox, dəxi bəsdir! Qoy indi qeyriləri versin! Ağamın ərvahına bircə addım qalıbdır. Nə ki, bir qəpik pulum yoxdur, borcum da var". Nə ki, bir qəpik pulum yoxdur, borcum da var". Nə qədər iltica elədikcə də həqiqətdə ağa bir qəpik də vermədi və biz qayıdıb getdik. 1-2 gündən sonra şəhərə küy düşdü, hamı bizim muradımızı bildi və bizləri yüz bəhanə gətirib qəbul etmədilər. Bu vaxtda

məni apardılar cənab İ... xanın qulluğuna. Qulluqçular cavab verdi ki, ağa naxoşdur. Qasımbəy Mehmandarov məni göstərib dedi ki, bu vəkildir, Tiflisdən gəlib ağanın işindən xəbər gətirib. Ağaya ərz edin ki, yorğan – döşəkdə də olsa bizə izn versin gələk. Bizi ağanın qulluğuna apardılar. Ağa başını yorğanın altından çıxarıb bizim ilə öz işindən danışanda yavaş – yavaş yorğanın altından çıxıb oturub danışdığı vaxtda mən cəmiyyəti – xeyriyyənin sözünü başladım. Ağa "ay aman!" deyib yıxıldı. Qulluqçular "ağanın ürəyi gedibdir" – deyib, kimi soyuq su gətirdi ki, onun başına töksün, kimi qarsını boğmağa başladı. Bu halda biz dəftəri götürüb qaçdıq. Xülasə, Qarabağın ağaları məni qonaq çağırdılar, toy və xeyrat aşı yedirtdilər, amma bir qəpik cəmiyyəti – xeyriyyəyə verən olmadı. Axırda oxumuş bəyzadələrdən 5-19 adama dəftərə qol çəkdirib Bakıya qayıdıb, Dərbənd, Qubanı da gəzib, avqust ayının axırında Bakıya gəldim. Sentyabr gəldi, heç kəsdən bir xəbər çıxmadı. Başladıq dəftərə qol çəkənlərə kağız yazmağa. Axırda Şamaxı və Dərbənddən bir neçə adam pul göndərib, hər şəhərə bir yetim uşaq da göndərdi ki, onları cəmiyyət saxlayıb oxutsun. Onları gimnaziyaya qoyub bir mənzil tutub orada saxlatdım. O biri il heç bir kəsdən bir qəpik gəlmədisə də o uşaqları saxlayıb üçüncü ili evlərinə qaytardım. Çünki

qanuna görə hansı cəmiyyəti – xeyriyyə iki il hesab göstərməsə ki, nə qədər mədaxil və məxarici var, gərək bağlansın. Ona görə bizim də müsəlman cəmiyyəti – xeyriyyəsi bağlandı.

Cəmiyyətin zikr olan qaytanlı dəftəri indi də durur. Təəccüb o deyil ki, orada bir Bakı müsəlmanının rolu yoxdur. Təəccüb budur ki, Bakıdan bircə o vaxtda qubernator olan general Staroselskinin qolu var ki, yazıbdır: nə qədər Bakıda qubernator olsam borcumdur ki, hər ildə müsəlman cəmiyyəti – xeyriyyəsinə yüz manat verim".

İndi bizim cavanlarımız biz müsəlmanları qonşularımız erməni və gürcülərdən geridə qalmağını görüb fikir edirlər ki, bunun səbəbi bizim keçmişdə olan hakimlər olublar ki, onlara cürbəcür ixtiyarlar verib, onların elm təhsil etməyinə səbəb olublar. Amma bizlərə o ixtiyarları verməmdiyinə biz geridə qalmışdıq. Doğrudur, onlara və bizlərə həmişə bir göz ilə baxmayıblar. Amma elə vaxt olub ki, bizləri də irəli çəkmək istəyiblər. Amma biz özümüz qabağa getmək istəməmişik və getmək istəyənlərimizə də mane olmuşuq. Pəs belədə təqsir kimdə olubdur? Bu halda ki, Rusiyyədə olan millətlərin ixtiyarı özlərindədir və heç kəsə mane olan yoxdur, biz nə qayırmışıq və nə qayıra biləcəyik.

**Bircə yazıb – çığırmaqdan başqa heç nə eləməyirik. Amma çığırıb – bağırmaqdan iş çıxmaz. Halva deməklə ağız şirin olmaz. Un, yağ və bal gərəkdir, iş görməkdən ötrü puldan da artıq adam gərəkdir. Bircə adam ortalığa çıxardınız ki, pul təmənnasında olmayıb, millət üçün işləsin.**

*"Həyat" qəzeti, N115, 8 dekabr 1905-ci il*





## AZƏRBAYCANDA İLK XEYRİYYƏ TƏŞKİLATLARININ YARANMASI

**Azərbaycanda ilk xeyriyyə cəmiyyətinin yaradılması Həsən bəy Zərdabinin adı ilə bağlıdır.** XIX əsrin 70-ci illərinin əvvəllərində Axund Molla Cavad H. Zərdabiyə müraciət etdi: "Gəlin nəsə edək.Həsən bəy, məktəblərin açılışına şirkət təşkil edin. Türk dilində nizamnaməni yazın. Şəhərin 200 adlı-sanlı vətəndaşının siyahısını təşkil edin, onların hər birindən 50 rubl olmaqla üzvlük ödəmələrini yığın. Və gəlin məktəblər açaq. Bakıda xeyriyyə cəmiyyətini yaratmaq mütləq lazımdır". Buna H. Zərdabi cavab verdi ki, xeyriyyə cəmiyyətinin nizamnaməsi təşkil edilmişdir və ödəmələr yığılır.

**Beləliklə, 1872-ci ildə ilk dəfə Azərbaycan milli xeyriyyə cəmiyyəti yaradıldı.** Nizamnamənin birinci bəndində yazılmışdı: "Zaqafqaziyanın müsəlman əhalisinin artan ehtiyacını onların yoxsulluğunu nəzərə alaraq, biz oxuyanlara kömək və vəsaitlərə malik olmayanlar üçün cəmiyyət yaradırıq". Həsən bəy Zərdabi Azərbaycanda bütün ziyalı insanları bu işə cəlb edirdi.Tanınmış ziyalılar olan N. Vəzirov və Ə.Gorani də ona kömək edirdilər. Onlar böyük zəhmətlə ödəmələri yığırdılar. Bu, Həsən bəyi qətiyyən ruhdan salmırdı. 1872-ci ildə o, Qafqazı şəhərbəşəhər gəzərək, cəmiyyətə üzv toplamağa başlayır. Üzv yazılanlar ona üzvlük haqqından başqa əlavə ianə də verəcəklərini vəd edirlər. Bakıya qayıdan Həsən bəy cəmiyyətin başqa işlərini də sahmana salmaqla məşğul olur. Bu müddətdə Qafqaz şəhərlərindən cəmiyyətin xəzinəsinə xeyli pul daxil olur. Hətta Bakıda məktəbə düzəlmək üçün onun yanına iki uşaq da göndərirlər. Həsən bəy çətinliklə olsa da, onları şəhər

məktəblərinə düzəldə bilir. Ancaq təəssüf ki, bu vəziyyət çox davam etmir. Ödəmələr az-az daxil olurdu və cəmiyyətin ehtiyaclarını təmin etmirdi. Cəmiyyətin nizamnaməsinə görə, hər il gəlirlər və xərclər haqqında hesabat təqdim edilməli idi. Vəsait yetərsiz olduğu üçün cəmiyyətin fəaliyyəti dayanır.1873-cü ildə isə cəmiyyət tədricən bağlanır.

## BAKIDA CƏMİYYƏTLƏR

Məşhur "Manifest..." nəşr edilməsindən sonra 1905-ci ildə Azərbaycanda tədricən maarifin yayılmasına xidmət edən yeni xeyriyyə cəmiyyətləri yaradılmağa başlandı. **İlk qeydə alınmış Cəmiyyət 1905-ci ildə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" idi.** Cəmiyyət əsasən Bakı varlılarının və varlı ziyalıların cəmiyyəti idi. Onun müəssisləri Hacı Zeynalabdin Tağıyev, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, İsmayıl bəy Səfərəliyev, Hacı Aslan Aşurov, İsa bəy Hacınski, Kamil bəy Səfərəliyev, Əbdülxalıq Axundov, Məmmədrza Vəkilov, Həsən bəy Ağayev, Nəcəfqulu Sadıqov, İsrafil Hacıyev, Həsənağa Həsənov, Mirzə Əsədullayev, Əsəd bəy Səlimxanov, Ağabala Quliyev, Əsədullah Əhmədov, Hacı Həsən Ağamalıyev, Nəcəf Əmiraslanov olmuşlar.

Bu cəmiyyətin fəaliyyətinə xeyriyyə ilə yanaşı, mədəni və təhsil müəssisələri də daxil idi. Bu məqsədlə məktəblərin və tələbələrin dərsliklə təmin edilməsinə, həmçinin ən kasıb şagirdlərin məktəbə daxil olmasına və orta təhsil müəssisələrində təhsillərini tamamlamalarına köməklik göstərirdi.

**Birinci** iclasda H. Z. Tağıyev sədrliyə, İsrafil Hacıyev müavinliyə, Hacı Mustafayev xəzinədarlığa, Əhməd bəy Ağayev katibliyə, İsmayıl bəy Səfərəliyev, Əlimərdan bəy





Topçubaşov və Əsədullah Əhmədov İdarə Heyətinin üzvlüyünə seçilirlər.

Birinci Dünya müharibəsi illərində "Müsəlman Xeyriyyə Cəmiyyəti"nin fəaliyyəti xeyli genişlənmişdi. Qaçqın və acları yedirtmək, pul-paltarla təmin etmək sahəsində onun böyük xidməti olmuşdu. Cəmiyyət Nargin adasında saxlanılan əsir türk əsgərlərinə də öz köməyini əsigəmirdi. "Müsəlman Xeyriyyə Cəmiyyəti"nin idarəsi "İsmailiyyə" binasında yerləşirdi. Onun yardımçı təsərrüfatları da elə burada idi.

**Qeyd edək ki, 1914-cü ildə Bakı "Müsəlman Xeyriyyə Cəmiyyəti" idarə heyətinin fövqəladə iclasında** Peterburqda keçiriləcək müsəlman qurultayına nümayəndələrin ezam edilməsi haqqında məsələ müzakirə edilirdi. İdarə heyəti cəmiyyət adından çıxış etmək səlahiyyətini M. Ş. Əsədullayevə verdi və qurultayın sərəncamına 6 min rubl ayırmağı qərara aldı.

1917-ci ilin 6 aprelində "Müsəlman Xeyriyyə Cəmiyyəti" müsəlman ictimai təşkilatlarının şura iclası keçirildi, orada 45 nümayəndə iştirak edirdi. M. Hacınski iclası müvəqqəti komitənin fəaliyyəti haqqında məruzə ilə açdı. Komitənin layihəsinə əsasən Qafqaz müsəlmanlarının münasibətlərinin möhkəmlənməsi və yeni quruluş hazırlığı,bölgələrdə kənd komitələri yaratmaq üçün hər nümayəndəyə bir rayon komitəsi yaratmaq nəzərdə tutulurdu. Rayon komitələrinin nümayəndlərindən eyni üsulla quberniya komitələri yaradılır və onların tərkibindən mərkəzi komitə seçilirdi. Bu layihənin həyata keçirilməsi üçün aprel ayının 15-də Bakıda müsəlmanların Ümumqafqaz qurultayının keçirilməsi nəzərdə tutulmuşdu.

Aprelin 15-də, saat 11:30-da Qafqaz Müsəlmanları Qurultayının təntənəli açılışı oldu. Qurultayı Müsəlman

İctimai Təşkilatları Şurasının müvəqqəti icraiyyə komitəsinin nümayəndəsi M.Hacınski açdı. Rəyasət Heyətinə daxil idilər: Ə. M. Topçubaşov, N. Nərimanov, İ. Heydərov, F. Xoyski, M.Hacınski, N. Yusifbəyli; katibliyə isə - M. Ə. Rəsulzadə, İ. Qabulov, M. M. Axundov, M. Mahmudov, N. Ağayev, M. Mehdiyev.

Qurultayda Qafqaz müsəlmanlarının siyasi proqramının müzakirəsi ilə yanaşı, fondun yaranması haqqında da məsələ qaldırıldı.

Qeyd edək ki, Bakı qubernatorunun 30 noyabr 1906-cı ildə baş idarəyə göndərdiyi məktubda Bakıda qüvvədə olan 25 ictimai təşkilat göstərilirdi. Siyahıda **"Bakı Quberniyasının Müsəlman Əhalisinin Arasında Savadın Yayılması Üzrə Bakı Cəmiyyəti"** birinci yerdə idi. H. Z, Tağıyev cəmiyyətin sədri idi, sədrin köməkçisi – Ağa Aşurov, xəzinədar – A. Q. Tağıyev, katib – A. İ. Cəfərov; daimi üzvlər – İ. Əliyev, A. A. Kərbəlayi Nəsrulla, Ə. Əhmədov, İ. Heydər, A. Həsənov, A. Mehdiyev, Q. Mahmudbəyov, A. Hacınski, M. Q. Seyidməmmədovdan ibarət idi. Cəmiyyəti təsis edənlərin arasında həmçinin A. A. Həsənov (Bakı taciri), M. Q. Hacınski (mühəndis – texnoloq), A. Q. Axundov (mühəndis), İ. Məlikov (tacir), İ. Səfərəliyev (irsi nöhtərəm vətəndaş) idilər. 1907-ci ildən **"Bakı Quberniyasının Müsəlman Əhalisinin Arasında Savadın Yayılması Üzrə Bakı Cəmiyyəti" "Nəşri – Maarif" adlanmağa başlandı.** Onun fəaliyyəti başqa maarifçilik cəmiyyətləri ilə müqayisədə xüsusilə məhsuldar idi. Cəmiyyət əsas işini yüksək səviyyədə yerinə yetirirdi.





## BALAXANIDA CƏMİYYƏT

Qeyd edək ki, XX əsrin əvvəllərində **Balaxanıda Maarifçilik Cəmiyyəti** mövcud idi. O, belə adlanırdı: **"Orta təhsilin yayılmasının Balaxanı cəmiyyəti".** Cəmiyyət sənaye rayonları olan Balaxanı və Sabunçuda kişi, qadın və qarışıq təhsil müəssisələrinin təşkilatı ilə məşğul olurdu. Cəmiyyətin rəhbərlərindən biri olan F. F. Zeys neft sənayesi sahibi idi. **Cəmiyyət 1910- cu ildə açılmışdı.**

## "MÜSƏLMAN DRAM TRUPPASI" VƏ "HƏMİYYƏT" TƏŞKİLATI

**1913-cü ildə yeni teatr "Müsəlman dram truppası" və "Həmiyyət" kollektivi yaradılır.** Onlar teatr işi ilə fəal məşğul olmağa başlayır. Amma bu cəmiyyətlərin rəqabəti teatra əhəmiyyətli zərər verirdi. İ. Qasımov yazırdı: "Əgər cəmiyyətlər toplaşıb teatr işlərinin vəziyyətini müzakirə etsəydi, teatrın inkişafı üçün vahid yolu seçib müəyyən nəticələrə nail ola bilərdilər". Məşhur yazıçı Haşım bəy Vəzirov bu ideya ilə razı idi: "Əgər truppalar birləşəcəksə, onda əhəmiyyətli müvəffəqiyyətlərə nail olacaqlar". Və 1915-ci ildə bu istiqamətdə Bakıda "Müsəlman Dram Cəmiyyəti" təşkilatının təşəbbüsü də olmuşdu. Cəmiyyəti təsis edənlər isə aşağıdakılar idi: Sadıq bəy, Əhməd bəy, Cəmo bəy Hacınski,. Təsis edənlərin arasında həmçinin Hüseyn Ərəblinski, Hüseynqulu Rzayev (səhnə adı Sarabski)".

**Cəmiyyətin hədəfi:**

1. Dram sənətinin inkişafına kömək etmək, Bakı bələdiyyəsində daimi və təsadüfi müsəlman tamaşalarının quruluşunu vermək.

2. Senzura qaydalarına riayət etməklə, müsəlman dilində orijinal və tərcümə edilmiş dram əsərlərini hazırlamaq.
3. Müsəlman dilində ən yaxşı dram əsərləri üçün mükafatlar təyin etmək.
4. Bakı şəhərində teatr kassalarını lazımi qaydaya salmaq hazırlığı və aktyorların təkmilləşmələri üçün müvəqqəti kurslar yaratmaq.

Qeyd edək ki, 29 fevral 1916-cı ildə "Müsəlman Dram Cəmiyyəti" N103 altında reyestrə salınaraq rəsmən qeydə alınmışdı.

## "MÜQƏDDƏS NİNA" CƏMİYYƏTİ

Bakıda **"Müqəddəs Nina" Xeyriyyə Cəmiyyəti** də mövcud idi. Bu cəmiyyətin mərkəzi təşkilatı hələ 1846-cı ildə Tiflisdə yaradılmışdı. 30 aprel 1848-ci ildə Şamaxıda onun bölməsi açılır. "Müqəddəs Nina" Şamaxı bölməsinin üzvləri aşağıdakılar idi: Fatma xanım Əsədbəyova, Hoca xanım Haqverdiyeva, İbrahim xanın qızı Gövhər ağa, Süleyman xanın həyat yoldaşı Güri xanım və başqaları. 1859-cu ildə quberniyanın paytaxtının Bakıya köçürülməsindən sonra "Müqəddəs Nina" Şamaxı bölməsi syni adlı məktəblə birlikdə orada fəaliyyətə başlayır. Bakı bölməsinin sədri qubernator D. S. Staroselskinin həyat yoldaşı Yekaterina Staroselskaya olur. Üzvlər isə qubernator özü, Çimnaz xanım Səlimxanova, Hacı Mirzə Qulu, Hacı Hüseyn Qulu, Səfər Əli oğlu, Məlikməmməd Əliyev, Ağahüseyn Tağıyev və başqaları idilər. "Müqəddəs Nina" Cəmiyyəti yanında olan məktəb maarifin məşhur mərkəzi idi. Bu tədris – tərbiyə müəssisəsinin 1894-cü il ərzində məzunların arasında 128 rus, 36 erməni, 5 gürcü, 3 tatar





olmuşdu. Bu, əsasən qadın məktəbi, xristian dininə mənsub olanlar üçün idi.

## BAKIDAKI DİGƏR XEYRİYYƏ TƏŞKİLATLARI

Arxiv sənədləri arasında Bakıda yaradılmış bir sıra maarifləndirici cəmiyyətlər haqqında da məlumatlar var:

1. "Bakı şəhər məktəblərinin şagirdlərinə kömək cəmiyyəti" - 1907-1916-cı illər.
2. "Bakı ticarət məktəbinin ehtiyac duyan şagirdlərinə kömək cəmiyyəti" – 1907-1916-cı illər.
3. "İmperator II-ci Aleksandr adına Bakı kişi gimnaziyasının ehtiyac duyan şagirdlərinə kömək cəmiyyəti" - 1907-ci il.
4. "İkinci Bakı şəhər məktəbinin və Bakı şəhərinin rus-tatar məktəblərinin ehtiyac duyan şagirdlərinə kömək cəmiyyəti" – 1907-ci il.
5. "Bakı yəhudi maarifçilik cəmiyyəti "Talmud-Torun" - 1911-1913-cü illər.
6. "Şüvəlan müsəlman maarifçilik cəmiyyəti "Millət bağçası" – 1911-ci il.
7. "Bakı cəmiyyəti "Bizim məktəbimiz" – 1915-ci il.
8. "Elm" özünütəhsil Bakı cəmiyyəti" – 1911-ci il.
9. "Bilik-Güc" cəmiyyəti – 1911-ci il.
10. "Bakı real məktəbinin yoxsul şagirdlərinə kömək cəmiyyəti" – 1911-ci il.

## GƏNCƏDƏ XEYRİYYƏ MAARİFÇİLİK CƏMİYYƏTİ

Xeyriyyə maaririfçilik cəmiyyətləri yalnız Bakıda deyil, həm də başqa şəhərlərdə yaranırdı. Belə cəmiyyətlərdən biri **1880-ci ildə məktəblilər tərəfindən Gəncə kişi gimnaziyasının əsasında yaradılmışdı.** Cəmiyyətin əsas məqsədi şagirdləri dərsliklə təchiz etmək və maddi kömək göstərmək idi.Orada yazılırdı:

1. Baxılan nizamnaməni dəyişikliksiz qeydiyyat icazəsi ilə təsdiq etmək. Nizamnaməyə əsasən Yelizavetpol müsəlman xeyriyyə cəmiyyətini yaratmaq.
2. Bu qanun qüvvəyə mindikdən sonra, yəni elan edildiyi gündən iki həftə müddətində cəmiyyət reyestrə daxil edilir.

**Cəmiyyət üzvləri arasında daimi üzvlər** – Hüseynov Hacı Əli, Rəfiyev Hacı Məmməd Hüseyn; fəxri üzvlər – Məşədi Əli və Şanxorlu İsfəndiyar bəy Abbassalamov idilər. Gəncə maarifçilik cəmiyyəti ehtiyacı olan şagirdlərə yardım göstərirdi.

Cəmiyyət mövcudluğu dövründə şübhəsiz ki, Gəncə sakinlərinin maariflənmə işində əhəmiyyətli rol oynadı, onun maddi yardımları sayəsində yüzlərlə uşaq təhsil aldı, müəllimlərin ixtisaslaşdırılması yüksəldi.

Yuxarıda qeyd olunan cəmiyyət 10 may 1915-ci ildə "Nəşri-Maarif" maarifçilik cəmiyyətinin Gəncə bölməsinin idarəsinə 80 rubl köçürdü. Və həmin ilin noyabrında "Nəşri-Maarif"in bölməsi əsasında "Yelizavetpol quberniyasının müsəlmanları arasında savadın yayılmasının Yelizavetpol cəmiyyəti" yaradıldı. Təsis edənlərin arasında: Rəfibəyli, Rəfiyev, Məlikov və Vəkilov var idi. Müsəlmanlar arasında savadın və ibtidai təhsilin yayılmasına kömək etmək, yeni məktəblərin açılışına imkan yaratmaq, təhsili qaydaya salmaq, tatar dilinə ibtidai təlimi daxil etməyə dəstək göstərmək əsas hədəf idi. Bu cəmiyyətin vəsaitləri məhdudlaşmışdı və onun tədbirləri geniş miqyasına görə müsəlman xeyriyyə cəmiyyətindən geri qalırdı. Amma o, Gəncənin tarixində iz qoydu.





**Ümumiyyətlə, 1908-ci ildə Gəncədə 5 maarifləndirici cəmiyyət mövcud idi: üç müsəlman, bir erməni və bir rus.**

## YELİZAVETPOL MÜSƏLMAN XEYRİYYƏ CƏMİYYƏTİ

**Nizamnaməyə** əsasən cəmiyyətin hədəfi ən kasıb müsəlmanların himayə edilməsi idi. Bu məqsədlə klinikalar və başqa xeyriyyə müəssisələrində çalışan, həmçinin Rusiya imperiyasının orta və ali təhsil müəssisələrində təhsil alanlara kömək edirdi. Bütün fəaliyyəti boyunca cəmiyyətə aşağıdakı ictimai xadimlər başçılıq edirdi: Xəlil bəy Xasməmmədov (1906-1914); Ələkbər bəy Rəfibəyov 1915-ci ildən etibarən). Cəmiyyətin üzvləri: Əsgər bəy Adıgözəlov, Ələsgər Xasməmmədov, Xanlar xan Ziyadxanov, Musa bəy Rəfiyev və b.

Onlar cəmiyyətin gücləndirilməsi üçün tamaşalar da hazırlayırdılar.Büdcənin doldurulmasının əsas mənbələrində biri şəhərin imkanlı şəxslərinin ianələri idi.

Cəmiyyətin fəaliyyət növlərindən biri də kasıb şagirdlərə maddi yardımların verilməsi idi ki, bunun üçün cəmiyyətin büdcəsindən hər il müəyyən məbləğ ayrılırdı. 1916-cı il ərzində cəmiyyət altı nəfərin təhsilinə kömək göstərmişdi. Tbilisi Orta Texniki məktəb: A. Abdullayevin, B. Həsənbəyovun, A. Qasımovun; Tbilisi Müəllim İnstitutunda oxuyan Q. Verdiyevanın; Kiyev quberniyasının Orta Uman

kənd təsərrüfatı məktəbində A. Əsgərovanın; Bakıda M. Zamanovun.

Ehtiyac içində əhaliyə dəstəyin, kasıblara maddi köməyin göstərilməsi cəmiyyətin fəaliyyətinin başqa tərəfi idi. Bu, xüsusi ilə Birinci Dünya müharibəsi illərində şəhərin əhalisinin çox hissəsinin yaşayış səviyyəsi kəskin aşağı düşəndə hiss olundu. Yaranmış vəziyyətlə əlaqədar kasıb əhalinin yaşadığı küçələrin və evlərin siyahısı tutulmuşdu. Hər sahə üçün Yelizavetpol Müsəlman Xeyriyyə cəmiyyətinin üzvləri məsuliyyətli təyin olunur, maddi yardımların bölgüsünün düzgünlüyünü müşahidə edirdilər.

Şəhərdə ərzaq böhranının vəziyyətinin normallaşması üçün xeyriyyə cəmiyyəti ümumi yığıncaqda 22 və 29 fevral 1916-cı ildə şəhərin kasıb sakinləri üçün ərzaq anbarını açmağa qərar vermişdi. Cəmiyyətə şəhərin tutarlı şəxslərindən bu qərarın reallaşması üçün altı ay müddətində faizsiz istifadəyə 16 min rubl ayrılmış, anbara nəzarət isə cəmiyyətin Ərzaq bölməsinə tapşırılmışdı.

Həmçinin təşkilatçılıq və qaçqınlar üçün sığınacağın saxlanmasına görə **Yelizavetpol Xeyriyyə Cəmiyyətinin** fəaliyyətini qeyd etmək lazımdır. Yalnız 1916-cı ildə fevraldan iyula qədər himayə altına alınanlara H. Z. Tağıyevin verdiyi hesablamaya əsasən təxminən 105 min rubl sərf edilmişdi. Sığınacaq vaxtı xəstənin yanında nəzarət üçün tibbi heyət olurdu. Belə bir faktı qeyd etmək lazımdır ki, Yelizavetpol stansiyasında təcrid edilmiş məntəqədə vəfat etmiş türk hərbi əsirlərinin müsəlman adətləri ilə dəfn edilməsi icazəsi də var idi.





## "GƏNCƏ MÜSƏLMAN DRAM CƏMİYYƏTİ"

Bakıda olduğu kimi, Gəncədə də teatrın formalaşmasında mühüm rol oynamış xeyriyyə cəmiyyətləri mövcud idi. **1906-cı ildən "Gəncə Müsəlman Dram Cəmiyyəti"** fəaliyyətə başladı. 38 üzvü birləşdirmiş bu cəmiyyət öz sədri olaraq Ələsgər bəy Xasməmmədzadəni seçdi. Truppa bir neçə vodevil səhnələşdirdi, 1908-ci ildə isə Nəriman Nərimanovun rusca "Nadir şah", Namiq Kamalın "Vətən", Rəşid bəy Əfəndiyevin "Qanlı mərkəz", Soltan Məcid Qənizadənin "Dursunəli və Ballıbadı" vodevilini oynadı.

## GƏNCƏ "AKTYORLAR CƏMİYYƏTİ"

Gəncədə həmçinin "Aktyorlar cəmiyyəti" mövcud idi. Cəmiyyəti təsis edənlərdən biri Xudadat bəy Rəfibəyov idi. Cəmiyyət tamaşaların quruluşuna kömək edir, teatr truppalarının təşkilatlarına, aktyorlara maddi kömək göstərirdi. Burada daha bir "Projektor" adlı teatr binası da mövcud idi. Onu Qaragözov tikdirmişdi. Burada Azərbaycan dilində tamaşalar qoyulurdu. Beləliklə, 1915-ci ilin 14 iyununda Nəcəf bəy Vəzirovun iki pyesi – "Ev tərbiyəsi" və Sidqi Ruhullanın iştirakı ilə "Pulsuzluq" səhnələşdirildi. Həmçinin **teatr haqqında Azərbaycan dilində ilk kitab da Gəncədə nəşr edildi.** "Teatr nədir" əsərinin müəllifi Gəncə real məktəbinin türk dili müəllimi olan Mirzə Məhəmməd Axundzadə idi. Kitab Gəncə Müsəlman Dram Cəmiyyətinin vəsaitləri hesabına 1901-ci ildə işıq üzü gördü. Gəncədə həmçinin 1915-ci ildə Pospelovun vəsaitləri sayəsində tikilmiş sirk də mövcud idi.

## GƏNCƏ MÜSƏLMAN MİLLİ KOMİTƏSİ

**Fevral inqilabından (1917-ci il)** sonra Azərbaycanın Bakı və digər şəhərləri ilə yanaşı Gəncədə də Müsəlman Milli Komitəsi yaradılmışdı. Ölkədə hakimiyyətsizlik və anarxiyanın hökm sürdüyü 1917-1918-ci illərdə (Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Gəncəyə köçənə qədər) başqa yerlərdə olduğu kimi, Gəncədə də Azərbaycan türklərinin vəziyyəti və onların müdafiəsi ilə əlaqədar bütün məsələlər bilavasitə bu komitə tərəfindən həll edilirdi. Gəncə Müsəlman Milli Komitəsinə **"Difai" partiyasının** fəal üzvü Nəsib bəy Yusifbəyli başçılıq edirdi. Difaiçilərdən Ələkbər bəy Rəfibəyli, Xəlil bəy və Ələkbər bəy Xasməmmədovlar, Hacı Əli Hüseynzadə, Həsən bəy Ağayev, Aslan bəy Səfikürdski, Məmmədbağır Şeyxzamanlı, Məhəmməd ağa Pişnamazzadə, (Komitənin dini məsələlər üzrə müavini), Əhməd Cavad və başqaları Milli Komitənin üzvləri idi. Komitənin Gənclər Təşkilatının sədri Nağı bəy Şeyxzamanlı, müavini isə Əliqara bəy Məhəmmədov idi. Komitənin silahlı mühafizə dəstələri də yaradılmışdı. Qaçaq Qəmbər, Sarı Ələkbər kimi nüfuzlu qaçaqlar Komitəni mühafizə edirdilər. 1918-ci ilin birinci yarısında erməni-daşnakların xalqımıza qarşı soyqırımlarının qarşısını almaq üçün Gəncədəki Müsəlman Milli Komitəsi xüsusi fəallıq göstərmişdi. Məhz Gəncə Müsəlman Milli Komitəsinin səyləri nəticəsində şəhərdə və qəzada ermənilərin törətdikləri qırğınların qarşısı alınmışdı. Onlar hətta Şamaxı əhalisinin də köməyinə getmişdilər. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci ilin iyun ayının 16-da Gəncəyə köçdükdən sonra, iyunun 27-də Gəncə Müsəlman Milli Komitəsinin sərəncamındakı bütün ərzaq ehtiyatının Ərzaq nazirliyinə təhvil verilməsi barədə qərar qəbul etdi. **Hökumətin 1918-ci il 7 iyul tarixli** digər qərarı ilə Daxili İşlər, Maliyyə və Ərzaq nazirliklərinə Gəncə Müsəlman Milli Komitəsini ləğv etmək, onun əmlakını aşkarlamaq və qəbul etmək üçün xüsusi





ləğvetmə komissiyası yaratmaq tapşırıldı. Hökumətin həmin gün qəbul etdiyi digər qərarında isə Daxili İşlər nazirliyinə tapşırılırdı ki, **Azərbaycan Xalq Cümhuriyyəti ərazisində dövlət hakimiyyət orqanları yaradıldıqca, həmin ərazilərdəki Milli Komitələri ləğv etsin.**

## NAXÇIVANDA XEYRİYYƏ CƏMİYYƏTLƏRİ

XIX əsrin 80-ci illərinin əvvəllərində Naxçıvan şəhərində teatr dərnəyi yaradılır, burada M. F. Axundovun əsərlərini səhnələşdirməyə çalışırlar. **1883-cü ildə yaradılan "Müsəlman İncəsənət və Dram Cəmiyyəti"** bu şəhərdə mədəni həyatın böyük canlanmasına xidmət etdi. Bu cəmiyyət Şuşada olduğu kimi, həm də başqa şəhərlərdə ziyalı nümayəndələrini birləşdirir və onların təsiri altında Avropa mədəniyyətini yaymağa başlamışdı. Buraya Sultanov, Qurbanəli Şərifov, Məmməd Tağı Səfərov, Mirzə Əli, Məmməd Xəlilov, Paşa ağa Sultanov, Mirzə Ələkbər Sultanov daxil oldular. Məhz onlar 11 mart 1883-cü ildə Naxçıvanda ilk teatr təşkil etdilər. Bu, M. F. Axundovun "Müsye Jordan və dərviş Məstəli şah" pyesi idi. Birinci tamaşalar deputat Hacı Nəcəf Zeynalovun zalında keçirilirdi. Onun zalı Naxçıvan şəhərinin mərkəzində - bağçada yerləşirdi.Uzun müddət Naxçıvan teatrı Hacı Nəcəf Zeynalovun himayəsi altında olmuşdu. 25 sentyabr 1888-ci ildə Hacı Zeynalovun evində, Eynəli Sultanovun təşəbbüsü ilə "Molla İbrahim Xəlil kimyagər" tamaşası oynanmışdı. Tamaşa xeyriyyə məqsədi ilə keçirildi. **1890-cı ildə teatrın işləri pisləşməyə başladı.**

## ŞUŞADA CƏMİYYƏTLƏR

**XIX əsrin 90-cı illərində Şuşada Xeyriyyə Cəmiyyəti yaradılmışdı.** O, ehtiyacı olan şagirdlərə yardım göstərirdi. Bu cəmiyyətin fəaliyyəti haqqında məlumat çox azdır. Yalnız o məlumdur ki, 1895-ci ildə "Şuşa Xeyriyyə Cəmiyyəti" pul çatışmazlığından Bakı sakinlərinə müraciət etdi. Mesenatlar dərhal səs verdilər və hər kəs bacardığı köməyi etdi. H. Z. Tağıyev – 100 rubl, Bünyadov – 25 rubl, Bəylərov, Mədətov 16 rubl. Cəmiyyət göstərilmiş köməyə minnətdarlığını ifadə edirdi.

**Şuşa Azərbaycanın musiqi mərkəzlərindən biri idi.** XIX əsrin 90-cı illərində musiqişünas Xarrat Qulu tərəfindən musiqi məktəbi açılmışdı və buraya gənc müğənnilər cəlb edilmişdi. Şuşada şəhərin musiqi həyatının formalaşmasında böyük rol oynamış **"Musiqişünas Cəmiyyəti" və "Müğənnilər Cəmiyyəti" mövcud idi.**

## ŞƏKİDƏ CƏMİYYƏTLƏR

**1904-cü ildə Şəkidə "Nuxa Şəhər Müsəlmanları Arasında Təhsilin Yayılması Üzrə Cəmiyyət"** yaradılmışdı. Cəmiyyət rus və Azərbaycan dillərində təhsili yaymağı qarşısına məqsəd qoymuşdu. Cəmiyyət fəallara kömək etmək, öz hesabına yeni məktəblər, kitabxanalar açmaq, mühazirələr təşkil etmək, ədəbi axşamlar keçirmək, kasıbların uşaqlarını məktəblərə qəbul etmək və təhsildə onlara kömək etmək, dərslikləri nəşr etmək və şagirdlərə pulsuz paylamaq, əlaçılar arasından müəllimlər hazırlamaq və s. işləri öz öhdəsinə götürürdü. 1914-cü ildə Şəkidə dörd xeyriyyə cəmiyyəti var idi. 1916-cı ildə şəhər sakinlərinin xahişi ilə **"Müqəddəs Nina" cəmiyyəti yanında azərbaycanlı qızlar üçün də məktəb açdılar.**





## SALYANDA CƏMİYYƏT

Arxivdə **"Salyan Maarifçilik Cəmiyyəti"nin** mövcudluğu haqqında məlumatlar var. Onun əsası 1915-ci ildə qoyulmuşdu. Cəmiyyətin sədri Cavad rayonunun rəhbəri Yerofeyev, xəzinədar – Nurəli bəy Axundov, katib – Əbusalam Səmədov idi.

## İRƏVANDA CƏMİYYƏT

**İrəvanda "Müqəddəs Ripsimin Cəmiyyəti" mövcud idi.** Bu cəmiyyətin üzvlərinin arasında 40-dan çoxu azərbaycanlılar idi. Onlar Nəcəf ağanın həyat yoldaşı Bəyimcan xanım, İsmayıl ağanın həyat yoldaşı Dostu xanım, Əsgər xanın həyat yoldaşı Azıs xanım, Rzaqulu xanın həyat yoldaşı Bəka-Bəguli, Abbasqulu bəyin həyat yoldaşı Varvara Bünyadova Müşərrəf; İbrahim xanın həyat yoldaşı Nazlı bəyim, Mehbalı xanın dul xanımı Nazlı xanım, Yusif xanın həyat yoldaşı Vəkilova, Süleyman xanın həyat yoldaşı Rozanisə xanım, Xancan xanın həyat yoldaşı Sarabəyim xanım, general-mayor Ehsan xanın qızı Sonabəyim xanım, Qulu ağanın həyat yoldaşı Sona Xocamirova Tükəzban xanım, Halu bəyin həyat yoldaşı Tuti xanım, İsmayıl bəyin həyat yoldaşı Can xanım, Cavad ağanın dul xanımı Xırda xanım, Məhəmməd Əlinin həyat yoldaşı Xırda xanım, Zaqafqaziya Şeyxinin həyat yoldaşı Xırda xanım, Xurşudbəyim və başqaları idi. Bu cəmiyyət İrəvan qubernіyasının sakinlərinin maariflənməsinə xidmət edirdi.

# AZƏRBAYCANIN APARICI MƏDƏNİ – MAARİFÇİLİK CƏMİYYƏTLƏRİ

XX əsrin başlanğıcında yaranmış bütün başqa mədəni – maarifçilik cəmiyyətlərinin arasında aşağıdakıları xüsusi ilə qeyd etmək lazımdır.

## "NƏŞRİ-MAARİF" CƏMİYYƏTİ

**1906-cı ilin 1 avqustunda** Cəmiyyəti təsis edənlərin ərizəsinə əsasən (Bakı taciri – Əsədulla Əhmədovun, şəhər dumasının üzvü İsmayılbəy Səfərəliyevin, Bakı taciri Ağahüseyn Tağıyevin, dumanın üzvü Məmmədhəsən Hacılının, Neft sənayesi sahibi Həsən Mustafayevin, Bakı taciri Əliağa Həsənovun) Bakı cəmiyyətləri işləri üzrə quberniya buradakı müsəlman əhalinin arasında savadın yayılması ilə bağlı Bakı Cəmiyyətinin nizamnaməsini təsdiq etməyi qərara aldı.

**1906-cı ilin 24 noyabrında keçirilən yığıncaqda** İdarə Heyətinin sədri Hacı Zeynalabdin Tağıyev seçildi. Cəmiyyətin işində fəal iştirak edirdilər: M. H. Hacılı, Q. Qarabəyov, İ. Aşurbəyov, M. Muxtarov, A. Ağayev, M. Nağıyev, A. İ. Cəfərov və başqaları.

Cəmiyyət savadın və ibtidai təhsilin yayılmasında yardımı əsas götürürdü. Bu işin həyata keçirilməsi üçün cəmiyyət mövcud məktəblərə, mədrəsələrə kömək etməyi və ya onları öz vəsaitləri ilə açmağı vacib sayırdı. Kitabxana – oxu zalı açılışı nəzərdə tutulurdu, pedaqoji kurslar, xalq müəllimlərinin hazırlığı üçün xüsusi təhsil müəssisələri, tamaşaların





qoyuluşu, ədəbi axşamlar, öz mətbuat orqanının və dərsliklərin nəşrini planlaşdırırdı.

Qeyd edək ki, Azərbaycan əhalisi arasında məşhurlaşmış rayon məktəblərində effektiv təhsil tədris olunmurdu. Şagirdlər o fənnlər haqda anlayışlar almırdı. Öz fəaliyyətinin başlanğıc dövründə savadın yayılmasında müəyyən köməyi rus-azəri məktəbləri göstərirdi. Amma yerli əhali onlara etibarsızlıqla yanaşırdı. Təhsilin Azərbaycan dilində aşağı səviyyədə olması da öz mənfi rolunu oynadı. Belə vəziyyətdə "Nəşri-Maarif Cəmiyyəti"nin Bakıda açdığı 3 məktəbin fəaliyyətini birinci iki ildə əhəmiyyətli hesab etmək olar. Onlar şəhərin 3 əsas mərkəzində yerləşirdi. İlk məktəb Qalada, Hacı Banu məscidinin yanında açılmışdı. Orada iki sinif fəaliyyət göstərirdi. İkincisi, Hacı İmam Əlinin məscidində 4 sinifli və üçüncü – Təzəpir məscidinin yanında yaranmışdı.

**"Nəşri-Maarif Cəmiyyəti"** tərəfindən açılmış məscid məktəblərində uşaqlar 7 yaşdan 13 yaşa qədər Azərbaycan və rus dillərində öyrənirdilər. Şəriət və hesabata da eynən "Nəşri-Maarif Cəmiyyəti" tərəfindən hazırlanmış proqram üzrə hazırlaşırdılar. Dərs proqramı şəhər məktəbinin 4-cü sinif proqramına uyğun idi. Birinci məktəbdə 40 şagird oxuyurdu, üçüncü məktəbdə isə 120 şagird. Təzəpir məscidi yanındakı məktəbdə tədris Azərbaycan dilində aparılırdı.

Ümumilikdə 1907-1912-ci ilə qədər maarifləndirici cəmiyyətin 15 məktəbi açılmışdı ki, onların saxlanmasına 32656 rubl sərf edilmişdi.

Məktəblərin açılşı ilə Cəmiyyətin qarşısında müəllimlərin hazırlığı problemi dayanırdı. Müəllim çatışmazlığının aradan qaldırılması üçün müsəlman müəllim seminariyası "Darül-Müəllim"in proqramı təşkil etmişdi. Burada əsas siniflərlə və ibtidai məktəblə seminariyanın yaradılması göstərilirdi.

İbtidai məktəbə başçılıq edən Məmməd Cavadbəy Konstontinopolda (İstanbul) ali təhsil almış və 1907-ci ildə fəaliyyətə başlamışdı. Üç il sonradan təşkilatçıların ümidlərini doğrultmadığı üçün o bağlanmışdı.

**1912-ci ildə "Nəşri-Maarif Cəmiyyəti" bağlanma təhdidi altında məcbur olub nizamnaməsini dəyişdirdi.** Yeni mətndən "məktəb" və "mədrəsə" sözləri çıxarıldı. Çünki birinci variantda cəmiyyət dini hədəfləri aşmasında ittiham edilirdi.

Əsasən bu anlayışların məzmunu ilə bağlı mübahisə etmədən və müəyyən dərəcədə öz fəaliyyəti ehtiyacını diqqətə alaraq İdarə Heyəti üzvləri güzəştə getdilər və kiçik fasilədən sonra cəmiyyətin fəaliyyəti yeniləndi.

**Cəmiyyətin böyük diqqəti uşaqların təhsil keyfiyyətinə ayrılırdı.** Məktəblərdə tədrisin səviyyəsinin artması üçün vaxtaşırı müvəqqəti müəllim kursları açılırdı, müəllimlərin qurultaylarında iştirakına da maddi yardım göstərirdi. İlk axşam müəllim kursları 1907-ci ildə fəaliyyətə başladı. Onlarda təlim pulsuz idi. "Nəşri-Maarif Cəmiyyəti" məktəblərinin müəllimləri xalq müəllimlərinin qurultayının işində iştirak edirdilər – Bakıda, Şamaxıda, Sankt-Peterburqda.

Yaranmış ənənəyə görə cəmiyyət öz məktəblərində bütün oxuyanlara pulsuz dərsliklər verirdi. Novruz Bayramı günü hamıya hədiyyələr paylayırdı, müavinət ayırırdı. Moskvaya və Sankt-Peterburqa getmək, Tbilisi müəllim institutunun kurslarında oxumaq üçün ehtiyac duyanlara kömək edirdi. Cəmiyyətin İsgəndəriyyə Qadın Rus-Müsəlman məktəbində dörd təqaüdçüsü var idi.

**Cəmiyyətin əsas vəsaiti** üzvlük ödəmələrdən və şəxsi ianələrdən ibarət idi. Bundan başqa öz büdcəsinin saxlanması





üçün cəmiyyət teatr tamaşaları hazırlayır, xeyriyyə axşamları təşkil edirdi.

**1912-ci ilin hesabatında qeyd olunurdu ki,** cəmiyyət məktəblərə maddi yardım göstərir, onların saxlanmasına 13460 rubl sərf edilmişdir. Bundan başqa idarə 1922 rubl maddi yardımı yeni dərsliklərin, mebelin və sinif vəsaitlərinin əldə edilməsinə ayırırdı.

1913-cü ildə "Nəşri-Maarif"in fəaliyyəti haqqında aşağıdakı faktları qeyd etmək olar: idarənin 12-ci iclası oldu və burada 140 sual dinlənmişdi. Onların arasında belə suallar var idi: cəmiyyət məktəblərində yeni bölmələrin açılışı, Sankt-Peterburqda xalq maarifi məsələləri üzrə, I Ümumrusiya qurultayında iştirak və s.

**Cəmiyyət 13 təhsil müəssisəsini müəyyənləşdirirdi.** Ümumi oxuyanların sayı – 940 nəfər idi. 1913-cü il dekabrın 5-də keçirilən iclasda İdarə Heyəti üzvləri Əmircan və Balaxanı məktəblərində hərəsində bir bölmə açılmasına səs verdilər.

Bu məktəblərin saxlanmasına idarə 13675 rubl, dərsliklərin almasına 2080 rubl ayırırdı. Məktəblərdə oxu üçün 215 rubl məbləğində jurnal və qəzetlərə vəsait ayrılmışdı.

**1914-cü ildə "Nəşri-Maarif Cəmiyyəti"** məktəb təhsili sahəsində fəaliyyətini davam etdirirdi. Bir məktəb Bilgəh kəndində, iki məktəb isə Qala kəndində açılmışdı. Beləliklə cəmiyyətin siyahısında artıq 16 məktəb və 35 bölmə 14 kənddə yerləşirdi və orada 1074 oğlan və 126 qız təhsil alırdı. 1914-cü ildə məktəblərə dərsliklərin əldə edilməsi və vaxtaşırı nəşriyyatların fəaliyyəti üçün cəmiyyət 7050 rubl ayırdı. Məktəblərin saxlanması isə 20355 rubla başa gəlirdi.

**1915-ci ildə cəmiyyət 15 məktəb müəyyənləşdirdi ki,** bunların saxlıanmasına 21291 rubl sərf edilirdi. Onların normal fəaliyyətinin təmini üçün dərsliklərə, nəşriyyatlara,

mülklərə və dəftərxana ləvazimatlarına idarə 2044 rubl ayırırdı.

**"Bakı Müsəlman Xeyiryyə Cəmiyyəti"** ilə birgə "Nəşri-Maarif Cəmiyyəti" məktəbli yaşında olan yetim uşaqlara məktəblərdə bölgü üzrə köməklik göstərirdi. Belə ki, 13 avqust 1915-ci ildə idarənin iclasında 6 oğlan və 5 yetim qızın cəmiyyət məktəbində oxuması məsələsinə baxılmışdı. Cəmiyyət Bakıya gələnlərin məişət şəraitini yaxşılaşdırmaq üçün və onun himayəsində olan yetimlərin, müharibə illərində həlak olmuş müsəlmanların uşaqları üçün də iş aparırdı.

**1916-cı ilə aid hesabatda** cəmiyyət yenidən vurğulayırdı ki, maarifçilik onun fəaliyyətinin əsas sahəsidir. Bütün fəaliyyəti dövründə "Nəşri-Maarif"in sədrləri H. Z. Tağıyev və M. Muxtarov olmuşdu. 1916-cı ildə cəmiyyət yeni açılmış 3 məktəbin bölmələrini maliyyələşdirdi, bunlar – Əmircan, Balaxanı və Ramana məktəbləri idi. Beləliklə, 1916-cı ildə "Nəşri-Maarif Cəmiyyəti"nə 16 məktəb (onlardan 2-si qadın məktəbi idi) aid idi. Orada 152 qız və 979 oğlan təhsil alırdı.

Cəmiyyət məktəbləri üçün 500 rubl məbləğində jurnallar və qəzetlər buraxılmışdı: "Dünyada olanlar", "Xalq Müəllimi", "Torağay", "Məktəb".

**1916-cı ilin yanvar ayında "Nəşri-Maarif Cəmiyyəti"nin** *məktəb müəllimlərinin* 22 noyabr 1915-ci ildən idarənin qətnaməsinə əsasən əmək haqqı artırılmışdı. 1916-cı ilin oktyabr ayında ağır hərbi vəziyyətlə əlaqədar məktəblərin hərbi qulluqçularına əlavə müvəqqəti maaş verilirdi.

1916-cı ildə cəmiyyətin məktəblərini 121 şagird bitirdi ki, onlardan 11-i qız idi.

"Nəşri-Maarif Cəmiyyəti"nin Azərbaycan əhalisinə qarşı olan qayğısı yalnız Bakı Quberniyası ilə məhdudlaşmırdı.





Belə ki, 4 mart 1916-cı il tarixdə keçirilən iclasda Yerevan Müsəlman Xeyriyyə Cəmiyyətinə yardıma baxılmışdı. Və burada Yerevan ticarət məktəbinin təsisçisi olan A. O. Əliyevanın subsidiyaların verilməsi haqda xahişi ifadə edilmişdi. Bu təhsil müəssisəsinin sonrakı müvəffəqiyyətli fəaliyyətinin təminatı üçün İdarə Heyəti 2 min rubl ayırmışdı.

Ağır hərbi vəziyyətə baxmayaraq cəmiyyət vəsaitlər tapırdı. Bu dövrdə təqaüdçülərin saxlanması üçün 1225 rubl təqaüd təyin edilmişdi. İsgəndəriyyə qadın məktəbinin 6 məktəbli qızına, Tbilisi Aleksandr Müəllim İnstitutunun 2 şagirdinə, Moskva Ticarət İnstitutunun tələbələrinə maddi yardım verilmişdi. Petroqrad İnstitutunun mühəndislərinə və bir çox başqalarına da yardım ayrılmışdı.

## "NİCAT" CƏMİYYƏTİ

**"Nicat" mədəni – maarif cəmiyyəti 1906-cı il mart ayının 8-də təşkil olunub.** Bəzi qəzetlər isə yazır ki, guya təşkilat avqustun 22-də yaranıb. Həmin gün cəmiyyət üzvləri Bakının M. Muxtarov küçəsində Əjdər bəy Aşurbəyovun evini icarəyə götürüb işə başlayır. Cəmiyyətin üzvləri Üzeyir Hacıbəyov, Məhəmməd Əmin Rəsulzadə, Cahangir Zeynalov, Mirzağa Əliyev, Hüseynqulu sarabski, Murad Muradov, Hüsey Ərəblinski, Mehdi bəy Hacınski, Bədəl bəy Bədəlbəyov, Həbib bəy Mahmudbəyov, Abbasqulu Kazımzadə, Məhəmməd Əli Rəsulzadə, Qulammirzə Şərifov, Soltan Məcid Qənizadə, Əlisgəndər Cəfərov, Mirmahmud Kazımov, İbrahim Əbilov, Sidqi Ruhulla, Məmmədəli Sidqi, İmran Qasımov elə o gün İdarə Heyətini seçdilər. Cəmiyyətin sədrliyinə Məmmədəlibəy Səlimxanov seçilir, başqa bir mənbədə isə göstərilir ki, doktor X. B. Ağayev seçilib. Sonra ianə toplanmağa başlanılır. H. Z. Tağıyev beş

min manat verir. Musa Nağıyev də beş min yazdırır. Və H.Z.Tağıyev əlavə olaraq bildirir ki, əgər Musa Nağıyev beş min manat verməkdən imtina edərsə, onun əvəzinə pul ödəməyə hazırdır. "Nicat"ın ən fəal üzvlərindən biri İmran Qasımov olmuşdur. Cəmiyyətə "Nicat" adını da o vermişdir. İmran Qasımov əslində podratçılıqla məşğul olurdu. Murtuza Muxtarovun Əhməd Cavad və M. Muxtarov küçələrinin tinindəki əzəmətli sarayını tikdirərkən yıxılıb ayağını sındırmış və sonra bundan da vəfat etmişdi. 1907-ci ilin martın 9-da İdarə Heyətinin sədrliyinə doktor Həsən bəy Ağayev seçilir. Noyabrın 12-də onun İrana getməsi ilə əlaqədar olaraq sədri Məhəmməd Əmin Rəsulzadə əvəz edir.

"Nicat"ı təşkil edənlərin əksəriyyəti göründüyü kimi ziyalılar idi. Əlbəttə, içərilərində varlı və sahibkarlar da vardı. Cəmiyyətin əksəriyyəti azərbaycanlıları savadlandırmaq və maarifləndirmək, yoxsul uşaqlarına kömək etmək, onları məktəblərə cəlb etmək, ehtiyacı olanlara maddi kömək göstərmək idi. Cəmiyyət Bakıda və Bakı kəndlərinin bəzisində kitabxana və qiraətxanalar açmışdı. Bakıdakı kitabxana və qiraətxananın müdiri Məmmədbağır Axundov idi. Kəndlərdə açılmış bir və iki sinifli məktəblərin sayı otuza çatmışdı. Belə məktəblərdən biri də Balaxanı kəndində açılmışdı. M. Ə. Sabir həmin məktəbdə bir neçə il dərs demişdi.

Cəmiyyət fəhlələr üçün gecə kurslarının, gecə məktəblərinin açılmasına da xüsusi fikir verirdi. Binalar kirayələyir, ictimai-siyasi mövzularda müzakirələr təşkil edirdi. Bəzi vaxt "Nəşri-maarif" Cəmiyyəti ilə əlbir işləyir, birgə tədbirlər həyata keçirirdi.

**"Nicat"ın teatr bölməsi xüsusilə böyük həvəs və enerji ilə işləyirdi.** Cəmiyyət gənc aktyor truppaları yaradır və onların ətrafına teatr həvəskarlarını cəlb edirdilər. Dövrün





tanınmış aktyorlarından Hüseyn Ərəblinski, Abbas Mirzə Şərifzadə, Mirzağa Əliyev, Sidqi Ruhulla və başqaları bu truppalarda nəinki yaxından iştirak edir, eyni zamanda truppaya rəhbərlik də edirdilər. Benefislər təşkil edilərək, yığılan pullar ehtiyacları olan məktəb uşaqlarına verilirdi. Görkəmli yazıçı və dramaturqlar da bu cəmiyyətin ətrafına toplaşmışdılar. Nəcəf bəy Vəzirov, Əbdürrəhman bəy Haqverdiyev, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov və başqaları həm öz əsərlərini və həm də rus və dünya ədəbiyyatından tərcümə etdikləri dram əsərlərini səhnəyə çıxarır və onların məşqlərində yaxından iştirak edirdilər. Milli musiqi mədəniyyətinin inkişafında da "Nicat"ın böyük xidməti olmuşdur. Məsələn, 1908-ci ildə Bakıda "Leyli və Məcnun" operası məhz "Nicat"ın təşəbbüsü ilə göstərilmişdi.

**"Nicat" cəmiyyəti eyni zamanda həftədə bir dəfə "Nicat" adlı qəzet də buraxırdı.** Qəzet İsa bəy Aşurbəyovun vəsaiti və redaktorluğu ilə dərc olunurdu.

Cəmiyyətdə maliyyə, həmçinin siyasi fikir və ideya məsələləri üzrə tez-tez ixtilaflar baş verirdi. Bu, başlıca olaraq cəmiyyətin demokratik əhval-ruhiyyəli, qabaqcıl nümayəndələri ilə varlı təbəqə nümayəndələri arasında gedirdi. Belə ixtilaf və toqquşmalar 1917-ci ilədək, yəni cəmiyyətin bağlanmasınadək davam etmişdi. Belə ixtilaflardan birini göstərmək olar. İsa bəy Aşurbəyov özünü maarifpərvər kimi göstərsə də, çalışmalarında sinfi fəaliyyəti həmişə üstün gəlirdi. 1916-cı il mart ayını 24-də "Nicat" cəmiyyətinə yeni seçkilər keçirildi. Aşurbəyov seçkilərdə qalib gəlmək üçün seçiciləri pulla satın almaq yolu ilə özünün bütün yaxın adamlarını idarə heyətinə seçdirə bilmişdi. Mart ayının 24-də "Açıq söz" qəzetində "Nicat" cəmiyyətinə seçicilərə açıq məktub" adlı məqalə çap edilmişdi. Məktubu imzalayanlar içərisində Nəriman Nərimanovun, Məşədi Əzizbəyovun,

Əsədulla Axundovun da imzaları da var idi. Məktubda İsa bəyin və onun yaxın adamlarının idarə heyətinə hansı yollarla seçildikləri ifşa olunurdu. Həmin məqaləyə Aşurbəyov küçə söyüşləri ilə cavab vermişdi.

**"Nicat" cəmiyyəti vəsait əldə etmək üçün başqa vasitələrə də əl atırdı.** Məsələn, şəhər bağında arabir gəzintilər təşkil edir və toplanan vəsaiti xeyriyyə işlərinə sərf edirdi. Növbəti dəfə də belə bir gəzinti təşkil etmiş və toplanmış dörd min manat pulu Cənubi Azərbaycana mücahidlərə göndərmişdi. Əlbəttə, bunu açıq edə bilməzdilər. Çünki polis hər dəfə toplanmış pula nəzarət edir və onun haraya göndərilməsini yoxlayırdı. "Nicat"çılar vəziyyətdən çıxış yolunu pulun oğurlanmasında gördülər. Pulu toplayan Əsədulla Axundov əldə edilmiş bütün vəsaiti gizlətdikdən sonra hay-küy salmışdı ki, pulu oğrular çalıb apardılar. Ara sakitləşəndən sonra həmin vəsaiti özü aparıb Cənubi Azərbaycanda mücahidlərə təhvil vermişdi.

**"Bakıda Müsəlman-maarif cəmiyyəti "Nicat"ın 1907-1908 illər hesabatı"** kitabında "Nicat"ın fəaliyyətinə qiymət verilərək yazılırdı: "Nicat" maarif cəmiyyəti Bakıda olan cəmiyyətlərin ən köhnəsi olub, yerdə qalan bütün cəmiyyətlərin müvəllidi adını almağa müstəhəqdir".

## "SƏADƏT" CƏMİYYƏTİ

**"Səadət" Cəmiyyəti Bakı tacirləri və ruhanilərinin cəmiyyəti idi. 1907-ci ildə təşkil olunmuşdu.** Əsas baniləri bunlar idi: Kərbəlayi Məhəmmədəli Salayev, Molla Ələkbər Mərdəkanlı, Axund Molla Ağa, Hacı Mustafa Rəsulov, doktor Əbdülxalıq Axundov, Məmmədəli bəy Səlimbəyov, Əliəsgər Dadaşov və başqaları. Sədri mərdəkanlı axund Ələkbər idi. Cəmiyyət 1907-ci ildə "Səadət" adlı bir məktəb açmışdı. Lalayevin ikimərtəbəli kiçik bir binasında yerləşirdi, 14 otağı var idi. Əli bəy Hüseynzadə 1910-cu ildən 1916-cı ilədək, yəni





Türkiyəyə gedənədək bu məktəbdə direktor işləmişdi. "Səadət" müdiriyyəti sonralar köhnə müsəlman qəbirstanlığında (indiki göz xəstəxanası) böyük bir bina tikdirir. Ancaq bina tikilib qurtarmamış Birinci Dünya müharibəsi başlayır. Hökumət binanın üstünü tələm-tələsik örtərək, onu hərbi xəstəxanaya çevirir. **Bu zaman "Səadət"in dərsləri onun şöbələrində keçirilirdi.** Onun bir şöbəsi Suraxanı küçəsi ilə Tatar küçəsinin tinində Hacı İmamverdi məscidinin nəzdindəki "Nur" adlı məktəb idi. Müdiriyyət "Nur"un üstündə ikinci bir mərtəbə tikdirərək, uşaqların oxuması üçün geniş imkan yaradır. "Səadət"in ikinci şöbəsi isə Aşağı priyut küçəsində bakılı Hacı Səmədin binası idi. Bu binanı Hacı Səməd Heydərov 55 minə tikdirib, özəlləşmiş sənədi ilə birlikdə məktəbə bağışlamış və vəd etmişdi ki, yenə ikimərtəbəli bir bina tikdirib, məktəbin ixtiyarına verəcəkdir ("Arı" jurnalı, N6, 1911).

Yuxarıda adları çəkilən cəmiyyətlərdən **"Müsəlman Xeyriyyə Cəmiyyəti", "Səadət" və "Səfa" cəmiyyətlərinin öz xüsusi binaları var idi.** "Müsəlman Xeyriyyə Cəmiyyəti" "İsmailiyyə"də, "Səadət" göz xəstəxanasında, "Səfa" cəmiyyəti Böyük Çəmbərəkənd küçəsindəki imarətində yerləşirdi. "Nəşri-maarif" və "Nicat" cəmiyyətlərinin binaları yox idi. **"Nicat" bir neçə dəfə Dumaya yer ayrılması ilə bağlı müraciət etsə də nəticəsiz qalmışdı.**

## "HİDAYƏT" CƏMİYYƏTİ

**1904-cü ildə general-qubernator Fadeyevin icazəsi ilə Bakıda "Hidayət" adlı bir cəmiyyət də yaradılmışdı.** Bu cəmiyyətin təşkilatçıları əsasən ruhanilər və ziyalılardan ibarət idi. Bakıda qaniçən qoçular və qatillərlə mübarizə aparmağı, dini fanatizmin qarşısını almağı "Hidayət" cəmiyyəti öz qarşısına əsas məqsəd qoymuşdu. Camaatı incidən, küçələrdə qadınları təhqir edən quduz qoçular cəmiyyət tərəfindən

müəyyən edilir və onların barəsində cəza tədbirləri görülməsi üçün adları general-qubernatora təqdim olunurdu. Cəmiyyətin nizamnaməsi Əhməd bəy Ağayev tərəfindən tərtib edilmişdi.

Bakı qoçularının harınlığı o dərəcəyə çatmışdı ki, şəhərin mərkəzində xüsusi kontorlar açaraq, pulla adam öldürmək üçün sifarişlər qəbul edirdilər. Belə kontorlardan biri indiki Kukla teatrının qabağında olan ikimərtəbəli evin birinci mərtəbəsindəki dükanlardan birində yerləşirdi. Camaat arasında bu kontorlar "adam öldürən kontor" adlanırdı. **Belə azğın qoçularla mübarizə "Hidayət"in məramnaməsində əsas yer tuturdu.**

**"Hidayət"in on nəfərdən ibarət idarə heyəti var idi.** Onun üzvlərindən H. Z. Tağıyev, İsa bəy Hacınski, şəhərin hörmətli ruhanilərindən Bakı qazisi Mir Məhəmməd Kərim, ruhani-alim, axund molla Ruhulla, ziyalılardan Əhməd bəy Ağayev, Mustafa bəy Əlibəyovu göstərmək olar. Bu sonuncu sonralar cəmiyyətin katibi seçilmişdi. 1906-ilin 17 noyabrında "Hidayət" cəmiyyətinin üzvləri qoçulara divan tuturlar. Bu qoçuların içərisində axund molla Ruhullanın həmkəndlisi – novxanılı Məşədi Hacı oğlunun da adı var idi. Qoçuluqla məşğul olmaqdan başqa Məşədinin Binəqədidə neft mədənləri də var idi. Cəmiyyət üzvləri qubernatordan xahiş edirdilər ki, Məşədi Hacı oğlu da qatil qoçu kimi Qafqazdan sürgün edilsin. Qubernator onun həbs edilməsi barədə sərəncam verir. Məşədi adının siyahıya düşməsində Axund Molla Ruhullanın barmağı olduğunu başa düşərək ondan intiqam almağa hazırlaşır. Axund düz üç il müddətində yay aylarında Novxanıdakı bağına köçə bilmir. Məşədi güclü vəsait qoyaraq oğlunun Qafqazdan sürgün edilməsi əvəzinə, Hökməli kəndinə (bu kənd Novxanıdan cəmi 10 verst aralıda idi) sürgün edilməsinə nail olur. O eyni zamanda Axund Ruhulladan intiqam almaq üçün fürsət axtarır. Nəhayət 1912-ci ilin yanvarın 16-da günorta





vaxtı axundun Poçtovaya ((indiki S. Tağızadə) küçəsində olan 151 saylı evinə soxulub onu namaz üstündə öldürür.

Dövrünün qabaqcıl maarifpərvər ruhanilərindən olan Axund Ruhulla eyni zamanda ərəb və fars dillərindən də gözəl tərcüməçi idi. **O, məşhur "İngilis xanımı" və Sərgüzəşti-yetiman" romanlarını fars dilindən Azərbaycan dilinə tərcümə etmişdi.**

"Hidayət" cəmiyyəti dini fanatizm adətlərinə qarşı çıxırdı. Müsəlmanların şaxsey-vaxsey və s. bu kimi xürufat və dini mərasimlərinin insanlara zərərdən başqa bir şey vermədiyini Cəmiyyət camaata olan müraciətnaməsində açıq qeyd edirdi. Müraciət şəhərin əyan və əşrəfi tərəfindən imzalanmışdı. Cəmiyyətin katibi Mustafa bəy Əlibəyov isə bu barədə "İrşad" qəzetində məqalə ilə çıxış etmişdi. Müraciət şəhərin fanatik dindarları tərəfindən qəzəblə qarşılanmışdı. Hətta qərara gəlmişdilər ki, qazi Mir Məhəmməd Kərimin və Mustafa bəy Əlibəyovun başı kəsilsin. Qəzəblənmiş qara kütlə Məhəmməd Kərimin ev qapısına od vurub yandırırlar. Əlibəyov isə evdən bayıra çıxa bilmirdi.

## "SƏFA" CƏMİYYƏTİ

**"Səfa" Mədəni-maarif cəmiyyəti 1910-cu ildə təşkil olunmuşdu.**

Hələ 1909-cu ilin mart ayında "Kaspi" qəzeti Çəmbərəkəndində və köhnə müsəlman qəbirstanlığında məscid və məktəb binası tikilməsi üçün ianə toplanması barədə xəbər verirdi. Məscidin tikilməsini Əjdər bəy Aşurbəyov öz üzərinə götürmüşdü. Murtuza Muxtarov isə məktəbin tikilməsi üçün 10 min manat pul ayırmışdı. **Həmin məktəb binası "Səfa" cəmiyyəti üçün tikilmişdi.** Onun təşkilatçıları əksərən maarifpərvər ziyalılar idi. Cəmiyyət milli mədəniyyət və

maarifi inkişaf etdirmək məqsədi daşıyırdı. Onlar şəhərdə və bir neçə kənddə kitabxana və qiraətxana açmışdılar. Bakıda "Səfa" yeganə bir məktəb idi. İkimərtəbəli bu məktəb binası 1910-cu ildə varlı ziyalılardan Əlibala Zərbəliyev tərəfindən tikilmiş (hazırda Lermontov küçəsində bu məktəbin yerində bağ salınmışdır).

**"Səfa" milli teatrın inkişafı ilə daha çox maraqlanırdı.** Özünün xüsusi teatr truppası var idi. Dövrün görkəmli aktyorları və tanınmış yazıçı və dramaturqlar bu truppa ətrafında toplaşmışdılar. Hazırladıqları tamaşalara "Nicat" cəmiyyətinin ayrı-ayrı aktyorlarını dəvət edirdilər. Cəmiyyətin fəaliyyətində Səməd Mənsur, Dadaş Bünyadzadə, Məhəmməd Əmin Rəsulzadə, Əliabbas Müznib, Hüseyn Ərəblinski, Abbas Mirzə Şərifzadə, Cahangir Zeynalov və başqaları yaxından iştirak edirdi.

Bəzən tanınmış adamları cəlb etmək üstündə "Səfa" ilə "Nicat" cəmiyyətləri arasında ixtilaf baş verirdi. Hər kəs istəyirdi ki, məşhur aktyorları öz tərəflərinə çəksin. Lakin "Səfa" cəmiyyətinin aktyorlarını hər vasitə ilə şirnikləndirib öz tərəfinə çəkmək istəyən "Nicat" cəmiyyətinin cəhdləri puça çıxırdı. **Məsələn, "Nicat" çox çalışırdı ki, Səməd Mənsuru öz tərəfinə çəksin.** Səməd Mənsur isə "Səfa"ya sadiq qalırdı. Səməd Mənsurun getməməsi "Səfa"nın mövqeyini daha da möhkəmlətdi. Bundan əlavə "Səfa" görkəmli aktyor Abbas Mirzə Şərifzadənin də tez-tez baş rollarda çıxış etməsinə nail olurdu. Doğrudur A. M. Şərifzadə "Nicat"ı həmişəlik tərk etməmişdi. Lakin onun "Səfa" truppasında baş rollarda çıxış və hətta rejissorluq etməsi tamaşaçılar qarşısında "Səfa" truppasının nüfuzunu xeyli qaldırmışdı.

**1917-ci ildə "Səfa" cəmiyyəti fəaliyyətini dayandırır.**





## BAKI BƏHAİ "RUHANİ" CƏMİYYƏTİ

**1909-cu ilin oktyabrında** Bakı şəhər qubernatoruna Musa Nağıyevin, Ağakişi Əliyevin, Əşrəf Kərimovun, Baba Səmədovun və İsmayıl İbrahimovun Bakı bəhai "Ruhani" cəmiyyətini təsis etmək üçün ərizə verilmişdi.

Bəhaistlər dini-kosmopolitizmin təliminin davaçılarıdır və İranda XIX əsrin ortalarında yaranmışdır. Bəhaizm elmlə dinin birləşdirilməsi ehtiyacını və şəxsi mülkiyyətin müdafiəsini vacib sayırdı. XX əsrin başlanğıcında bəhaizmin müəyyən qədər yayılması Azərbaycanda da baş verdi.

**Cəmiyyətin nizamnaməsi 1910-cu ilin yanvarında** Bakı cəmiyyətləri və ittifaqları haqqında işlər üzrə iclasda təsdiq edilmişdi. Cəmiyyət öz qarşısında Bakı quberniyası ərazisində bəhaizm tərəfdarlarının arasında savadın və ibtidai təhsilin yayılmasını hədəf qoyurdu: məktəblərə dəstək göstərmək, dərsliklər çıxarmaq, kitabxana-qiraətxana açmaq, tamaşaları və ədəbi axşamları qaydaya salmaq, kasıb bəhaistlərin orta təhsil müəssisələrinə daxil olmasına kömək etmək və s.

1910-cu ilin fevralında "Ruhani" cəmiyyətinin üzvlərinin yığıncağı oldu.Gizli səsvermədə aşağıdakılar şuranın üzvləri seçildi: A. M. Nağıyev, A. K. Əliyev, Şeyx Ələkbər Gorani, A. Kərimov, M. Q. Əsədullayev, M. Tahirov, İ. Uskul, A. V. Yaqubov, A. Z. Quliyev, A. M. Nağıyev isə fəxri sədr seçilmişdi.

Hər il cəmiyyət tərəfindən bəhaist uşaqlarının tərbiyəsinə və təhsilinə, şagirdlərin təliminin (təhsilinin) ödənişinə, dərsliklərə vəsait ayırır, kasıb bəhaistlərə maliyyə dəstəyi olurdu. **1915-ci ildə İdarə Heyəti müharibədən zərər çəkmişlərin xeyrinə 200 rubl vəsait ayırdı.**

**Beləliklə,** xeyriyyə cəmiyyətləri ayrı-ayrı şəxslər kimi Azərbaycan xalqının maariflənməsinə öz payını verdi, Azərbaycan mesenatlığı tarixində dərin iz qoydu. Xeyriyyə cəmiyyətlərinin fəaliyyətinə ana dilinin inkişafı, məktəblərin açılışı, kitabxanalar, axşam maarifləndirici kursları daxil idi. Qeyd edək ki, mesenatlıq – bu yalnız ayrı-ayrı şəxslərin təsirli qayğısı deyil, bacarıqla hazırlanmış iş, institut idi.

**Azərbaycanda mədəni-maarifçilik cəmiyyətlərinin yaradılmasında milli burjuaziyanın nümayəndələri bilavasitə və fəal iştirak edirdilər.**

Sonda qeyd etmək lazımdır ki, dövrün əhəmiyyətli hadisələri ilə əlaqədar olaraq xeyriyyəçiliyin yüksək inkişaf etdirilməsinə Azərbaycanın başqa sahibkarlarının da fəaliyyətini aid etmək olar.





## AZƏRBAYCANDA SƏHİYYƏNİN İNKİŞAFINDA İMKANLI İŞ ADAMLARININ İŞTİRAKI

Azərbaycan milyonçuları və iş adamları səhiyyənin inkişafına öz töhfəsini artıq mövcud olan klinikaları dəstəkləməklə deyil, həm də yeni xəstəxana binalarının tikintisini maliyyələşdirərək verirdi. Şuşada yerli sahibkarların ianələri sayəsində 1890-cı illərin sonunda üçmərtəbəli xəstəxana tikilmişdi.

**1899-cu ildə Azərbaycan sahibkarları "Körpələr evi" cəmiyyəti** üçün əhəmiyyətli töhfəni xəstələr üçün uşaq klinikasının şəxsi binasının tikintisinə verdilər. Onların sırasında H. Z. Tağıyev, Mustafa Rəsulov, Hacı Əli, Baba Babayev, Hacı Nemət Seyidov, İmamverdi Vəliyev və başqaları var idi.

**1907-ci ildə** öz nəhəng var-dövlətinin üçdə birini vəsiyyət edən Hacı Baba Aşurov vəfat etdi. Bu kapitalın bir hissəsinə Bakıda müsəlman xəstəxanasının tikintisi nəzərdə tutulmuşdu və bunu H. B. Aşurov hələ sağ ikən arzu edirdi.

1912-ci ildə Romanovlar sülaləsi hökmranlığının 300 illiyinin qeyd edilməsi şərəfinə Bakı Qadın "Müqəddəs Nina" təhsil müəssisəsi yanında xəstəxananın binasının tikintisinə H. Z. Tağıyev tərəfindən 20 min rubl ianə edilmişdi.

**13 aprel 1914-cü ildə "Uşaq xəstəxanası" cəmiyyətinin** təşəbbüsü ilə xəstəxana binasının təməlqoyma işləri başlamışdı. Təməlqoyma günü cəmiyyətin mənfəəti üçün A. M. Nağıyev və H. Z. Tağıyev hər biri 10 min rubl verməklə böyük töhfələr etmişdilər.

Yerli sahibkarların xanımları da sağlamlıq mərkəzlərinə ianələr vermişdi. Məsələn, 1918-ci ildə Z. Səlimxanova uşaq

xəstəxanası və müsəlman uşaq evinə 5500 rubl bağışladı. Eyni ehtiyaclara S. Tağıyeva tərəfindən də ianə alınmışdı.

Şübhəsiz ki, bu sahədə ən mühüm hadisə A. M. Nağıyev tərəfindən maliyyələşdirilən şəhər xəstəxanasının əsas binasının tikintisi oldu. Bu tikintiyə 300 min rubl ayrılmışdı. 1913-cü ilin 7 fevralında Bakı Dövlət Dumasının deputatlar heyəti – K. A. İretski, M. R. Vəkilov, M. Sultanov və Q.Məmmədovun başçılığı ilə Ağa Musa Nağıyevlə görüşüldü və ona hədiyyə üçün şəhər rəhbərliyinin minnətdarlığı çatdırıldı. Çıxışdan sonra M. Nağıyev qeyd etdi ki, bu onun bütün ömrünü keçirdiyi şəhərin əhalisi qarşısındakı bir borcudur.

Min ədəd xəstə çarpayısı yerləşəcək xəstəxana şəhərciyinin layihəsinin reallaşdırılması 10 ilə müəyyənləşmişdi. Burada aşağıdakı sayda yerlər müəyyənləşmişdi: cərrahlıq korpusu – 250; terapevt – 400; yoluxucu bölmə - 200; dəri-zöhrəvi – 50; vərəm – 50; əsəb – 50.

**Bakı sakinlərinin minnətdarlıqla adlandırdıqları "Nağıyev xəstəxanası"** yalnız şəhərdə səhiyyənin böyük mərkəzi olmadı, həmçinin səhiyyə peşəkarlarının hazırlanmasında mühüm rol oynadı.

## BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ ZƏRƏRÇƏKMİŞLƏRƏ KÖMƏK

**Milli sahibkarlar Qırmızı Xaçın Bakı bölməsinin** hər bir təşəbbüsünə cavab verərək, böyük əhəmiyyətli dəstəyin göstərilməsinə çalışırdılar. Qırmızı Xaç tərəfindən yaradılmış "Qadın dərnəyi"nə əhəmiyyətli töhfələr verərək, şəhər Dövlət Xəstəxanasının açılması, həmçinin "İsmailiyyə" Müsəlman Xeyriyyə Cəmiyyətinin binasında müsəlman xəstəxana-





sının yaradılmasını milli burjuaziya öz vətənpərvərlik borcu kimi qiymətləndirirdi.

Qeyd edək ki, müharibənin ilk günlərindən ianələr yığılmağa başlandı: M. Nağıyev – 10 min rubl, Dadaşov – 2500 rubl, Ş. Əsədullayev varisləri – 2 min rubl, İ. Səfərəliyev – bir min rubl, M. Aşurbəyov – 500 rubl və başqaları. Qırmızı Xaçın xeyrinə həmçinin müsəlman maarifləndirici cəmiyyətləri tərəfindən təşkil edilən xeyriyyə tamaşalarından da vəsaitləri gəlirdi. Beləliklə, 1914-cü ilin oktyabrında "Nicat" maarifləndirici cəmiyyətinin təşkil etdiyi tamaşalardan Qırmızı Xaçın fonduna 1230 rubl daxil oldu.

**Qırmızı Xaç Cəmiyyətinin Bakı bölməsi tərəfindən yaradılmış "Qadın Dərnəyi" təşkilatı** öz fəaliyyətinə görə Azərbaycan burjuaziyasının nümayəndələrinin töhfələrinə borclu idi. Müxtəlif vaxtlarda "Qadın Dərnəyi"nə yardım olaraq Qırmızı Xaç Cəmiyyətinə ianə daxil oldu: B. Səfərəliyeva tərəfindən bir min rubl, S. Tağıyeva tərəfindən – 500 rubl, X. Aydəmirova tərəfindən – 750 rubl, T. Əsədullayeva tərəfindən – 500 rubl. Bu təşkilata böyük maliyyə dəstəyini İ. Hacınski, İ. Əliyev, N. A. Əlizadə, Aşurbəyov qardaşları, İsgəndərov qardaşları və başqaları göstərirdi. 1915-ci ilin fevralında "Qadın Dərnəyi"nin xeyrinə Ağabala Quliyev 23 kisə un ianə etdi.

Milli burjuaziya nümayəndələri yaralılar üçün lazaretin açılışında da əhəmiyyətli kömək göstərdilər. 1914-cü ilin avqustunda Bakı qubernatoru V. V. Alışevskinin sədrliyi və bütün xeyriyyə və maarifləndirici cəmiyyətlərin iştirakı ilə Qırmızı Xaçın Bakı bölməsinin iclası oldu, burada lazaretlərin yaranması haqqında məsələ müzakirə olundu. İclasda "Səadət" mənəvi cəmiyyəti sağalan xəstələr üçün lazaret kimi işlənə biləcək şəxsi binasını təklif etdi. Eyni vaxtda

müsəlman cəmiyyətləri "İsmailiyyə" xeyriyyə cəmiyyətinin binasında lazareti açmaq arzusunda olduqlarını elan etdi.

**1914-cü ilin sentyabrında Müsəlman Xeyriyyə Cəmiyyətində** Bakının çox hörmətli müsəlmanları tərəfindən xəstələrə və yaralı döyüşçülərə yardım, həmçinin "İsmailiyyə" binasında da müsəlman lazareti kimi fəaliyyət üçün bölmə təşkil edilmişdi. Komitə tərkibinə ümumilikdə 35 nəfər olmaqla: M. Əsədullayev (sədr), M. Nağıyev, H. Z. Tağıyev, M. Muxtarov, İ. Hacıyev, İ. B. Aşurbəyovlar, N. Əmiraslanov və başqaları daxil idilər.

24 oktyabr 1914-cü ildə "İsmailiyyə "binasında lazaretin açılışı münasibəti ilə ibadət edilib və dualar oxunub. Açılışda olmuş Bakı şəhər qubernatoru polkovnik P. İ. Martınov sarayının inşaatçısı M. Nağıyevin, ideya müəllifi H. Z. Tağıyevin və xeyriyyə cəmiyyətinin sədri M. Ş. Əsədullayevin şərəfinə ziyafət verdi . Lazaret zalın yan və qonşu otaqlarında yerləşirdi, nəhəng təmtəraqlı zal isə yaralılar üçün qış bağına çevrilmişdi. Yüz çarpayıya hesablanmış lazaretin tibbi heyəti Müsəlman Xeyriyyə Cəmiyyətinin hesabına saxlanılırdı.

**1914-cü ilin sonunda yaralılara yardım üçün "Əsas komitə" seçilmişdi,** komitənin tərkibinə milli sahibkarlığın böyük nümayəndələri olan H. Z. Tağıyev, M. Nağıyev, M. Muxtarov, M. Əsədullayev də daxil idilər.

20 yanvar 1917-ci ildə M. Əsədullayevin sədrliyi ilə Müsəlman Xeyriyyə Cəmiyyəti Komitəsinin iclası qaçqınlara və Qafqaz cəbhəsi bölgələrindəki müharibədən zərər çəkmiş müsəlmanlara yardım edildi. Orada Rusiyanın Dövlət Dumasının üzvü M. Y. Cəfərov və Şamaxı rayon komitəsinin sədri, quberniya məclisinin sədri Mustafa Əfəndizadə iştirak etmişdi.

**Sədr Batum, Qars sahəsində və İrəvan vilayətində cəmiyyət bölmələrinin fəaliyyəti haqqında yığıncağa**





**məlumat verdi.** Məruzəyə əsasən, köməyin təşkil olunduğu gündən – 1917-ci ilin 1 yanvarınadək Cəmiyyət Komitəsi və onun bölmələri tərəfindən edilən ianələr 700 min rubla qədər idi. Əlavə olaraq isti paltar əldə edilməsinə və sığınacaqların saxlanmasına 500 min rubl sərf edilmişdi. Yekun – 2 100 rubl olmuşdu. O vaxtın rəsmi məlumatlarına görə, 125 min nəfərə qədər qaçqın və 200 min nəfər zərər çəkmiş müsəlman var idi, yəni hər kəsə 700 rubl düşürdü.

**Xeyriyyə Cəmiyyəti uşaq sığınacaqlarının təşkilatları ilə mühüm işlər yerinə yetirirdi.** Məqsədə nail olmaq üçün müharibədən zərər çəkmiş Batumi, Tbilisi, Qars, İrəvan, Şuşa, Yelizavetpol və başqa sahələrin müsəlmanlarına yerindəcə yardım etmə üzrə bölmələr və komitələr formalaşdırılmışdı.

Tbilisidə iki sığınacaq işləyirdi. Yelizavetpol ərazisində dörd sığınacaq fəaliyyət göstərirdi. Həmçinin Bakı Xeyriyyə Cəmiyyəti tərəfindən Bakı şəhərində dörd sığınacaq saxlanılırdı. Onlardan biri "Səfa" cəmiyyətinin məktəbində yerləşirdi.

**Əhəmiyyətli köməyi "Nicat" və "Səfa" mədəni-maarif cəmiyyətləri göstərirdi.** Bu cəmiyyətlər zərər çəkmişlərin xeyrinə ianə toplamağa kömək edirdi. 1915-ci ilin 18 yanvarında "Nicat" cəmiyyətinin təşəbbüsü ilə H. Z. Tağıyev teatrında Ü. Hacıbəyovun "Leyli və Məcnun" operası tamaşaya qoyuldu. Yığılan vəsait Qarsdakı qaçqınların ehtiyaclarına sərf olundu. "Səfa" cəmiyyəti kinomatoqrafiyadan qazanılan birgünlük gəliri komitənin xeyrinə köçürmüşdü. 1915-ci ilin mart ayında Bakı Qadın Müsəlman Xeyriyyə Cəmiyyəti "Əsli və Kərəm" operasından (H. Z. Tağıyev teatrı) və kinomatoqrafiya seansından ("Petroqrad" teatrı) bütün gəlirin təxminən iki min rublunu Qars və Ərdəhan ərazilərinin zərər çəkmişlərinin hesabına köçürdü.

**Bundan əlavə, 1915-ci ilin yalnız fevral-mart aylarında Komitənin hesabına Azərbaycanın şəhərləri – Bakı, Nuxa, Şamaxı, Yelizavetpol, Qazax, Naxçıvan əhalisindən təxminən 20 min rubl daxil olmuşdu.**

## TƏLƏBƏLƏRİN TƏHSİL VƏ XEYRİYYƏ CƏMİYYƏTLƏRİ TƏRƏFİNDƏN MALİYYƏLƏŞMƏSİ

**Müsəlman təhsil və xeyriyyə cəmiyyətləri tərəfindən məktəblərdə yoxsul tələbələr üçün əhəmiyyətli maliyyə dəstəyi təyin edilmişdi.**

Müsəlman təhsil və xeyriyyə cəmiyyətlərinin əhəmiyyətli maliyyə dəstəyi ilə orta məktəblərdə kasıb şagirdlərə köməklik göstərilirdi. Bu köməklik şagirdlərin təhsil haqqının ödənilməsi və onların dərs vəsaitləri ilə təmin olunması məqsədi daşıyırdı. Bu faktları iki ən məşhur təhsil cəmiyyətinin fəaliyyəti təsdiq edir.

**"Nəşri-Maarif" Cəmiyyəti.** 1907-ci ildən başlayaraq 1911-ci ilədək hər il bu cəmiyyət 23 şagirdə təqaüd və dərs vəsaitlərinə 6877 rus rublu dəyərində maliyyə dəstəyi göstərmişdi. 1912-ci ildə cəmiyyət Bakı İsgəndəriyyə məktəbində öz təqaüdçüsünü – Nəcibə Axundovanı saxlayırdı. O, 1912-ci ildə kursu bitirmiş və həmin cəmiyyətin Balaxanı qadın məktəbində müəllimə kimi fəaliyyət göstərmişdi. Cəmiyyət idarəsi həmçinin Bakı real məktəbinin şagirdi A. Şahbazovun təhsil haqqını ödəmiş, Bakı texniki məktəbinin şagirdi Məmmədyarova maddi yardım göstərmiş, üçüncü Bakı kişi gimnaziyasında – N. Əsgərova və orta məktəbdə oxuyan şagirdlərə də pul vəsaiti ayırmışdı. Bu xərclərə cəmiyyət 610 rus rublu dəyərində pul sərf etmişdi.





**1913-cü ildə** Bakı təhsil müəssisələrində oxuyan şagirdlərə 450 rubl dəyərində təqaüd ayrılmışdı. 1914-cü ildə cəmiyyət şagirdlərin təhsil haqqının ödənilməsinə böyük məbləğdə (870 rubl) pul ayırmışdı. Beləliklə, İsgəndəriyyə məktəbində oxuyan T. Namazovun və X. Şabanovun, Bakı Real məktəbinin şagirdi X. Həsənbəyovun, özəl şəhər kurslarının şagirdi M. A. Aleksandrovun təhsil haqları ödənilmişdi. 1915-ci ildə "Nəşri-Maarif" Cəmiyyəti Xarkov Universitetinin təqaüdçüsü A. S. Məmmədyarova köməklik edirdi, hansı ki, onlara kitablar üçün müavinət və mühazirə dinləmək hüququnun ödənilməsi üçün də təqaüd verilirdi. Sentyabrın 24-də cəmiyyətin idarə heyəti Bakı Quberniyası və Dağıstan ictimai məktəblərinin direktoru adından üçüncü Bakı Real məktəbinin şagirdlərinə 100 rubl dəyərində təqaüd müəyyən edilmişdi. Bakı İsgəndəriyyə Qızlar məktəbinin tələbələrinə cəmiyyət təlim və texniki xidmət müqabilində 700 rubl təqaüd ayırmışdı. Ümumi təqaüd və müavinətlərə 1000 rubl dəyərində maddi vəsait sərf olunmuşdu.

Çətin hərbi vəziyyətə baxmayaraq, cəmiyyətin idarə heyəti təqaüdçülərin saxlanılması üçün vəsait əldə etmək yolları axtarırdı. Belə ki, 1916-cı ildə İsgəndəriyyə Qızlar məktəbinin 6 tələbəsinin təmin olunması üçün 1225 rubl məbləğində təqaüd təyin olunmuşdu. Moskva Kommersiya İnstitutunun, Petroqrad Mülki Mühəndislik İnstitutunun tələbələrinə də müavinət verilmişdi.

**"Nicat" Cəmiyyəti.** Cəmiyyət gənc tələbələrə olduqca nəzərəçarpan dəstək göstərmişdi. 1911-ci ilin 17 mayında "Nicat" Cəmiyyətinin oxu zalında idarə heyətinin iclası keçirildi. İclasın iştirakçıları Texniki məktəbin 10 nəfər şagirdinə 200 rubl məbləğində təqaüd verilməsi barədə qərar qəbul etdi. Eləcə də Şahbazov adına Bakı Real məktəbində cəmiyyətin ayırdığı təqaüdə oxuyanlar var idi. 1911-ci ildə

Sankt-Peterburq Siyasət İnstitutunda oxuyan M. C. Məlikova mühazirə dinləmə hüququna görə Maarifləndirmə Cəmiyyəti tərəfindən maliyyə vəsaiti ayrılmışdı. Eləcə də idarə heyəti 1911-ci ildə "Səadət" ruhani məktəbinin şagirdi dağıstanlı İ. Q. İbrahimoğluna, 1912-ci ildə Bakı Real məktəbinin şagirdi A. Şahbazova, 1914-cü ildə Texniki məktəbin 2 nəfər şagirdinə təqaüd ayırmışdı. "Nicat" Cəmiyyəti orta təhsil müəssisələrində oxuyan şagirdlərin dərs vəsaiti və geyimlə təmin olunmasına vəsait ayırmışdı. 1912-ci ildə idarə heyəti Şamaxı Real məktəbinin şagirdi Rəhimova 6 ay ərzində güzəşt təyin etmişdi. Aylıq müavinət eləcə də Dəniz Yolları məktəbinin şagirdi Kərimova təyin edilmişdi. Eyni zamanda 1911-ci ildə 6 illik şəhər məktəbinin şagirdləri A. Quliyev və 1912-ci ildə M. B. Məmmədov güzəştlə təmin olunmuşdu. 1914 – 1915-ci illərdə idarə heyəti 3 nəfər şagirdə güzəşt tətbiq etmişdi. 1917-ci ilin may ayında müsəlman şagirdlərin Ümumqafqaz Konqresi açılmışdı. Bu Konqresdə "Müsəlman Xeyriyyə Cəmiyyəti"nin, "Nicat" və "Səfa" cəmiyyətlərinin nümayəndələri iştirak edirdilər. Konqresdə "Nicat" Cəmiyyətinin nümayəndəsi İ. Aşurbəyli çıxış etdi. O, öz çıxışında bildirdi ki, cəmiyyət hər zaman müsəlman gənclərinə böyük dəstək vermişdir. Bu tarixi əbədiləşdirmək istəyən cəmiyyət, hər il bu günü mərkəzi müsəlman tələbə fondunun xeyri üçün Üzeyir bəy və Ceyhun bəy qardaşlarının "Leyli və Məcnun" operasını səhnələşdirməyi qərara aldı. Gənc tələbələrə maddi dəstək təmin edilməsinə də "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti", "Səfa" və başqa cəmiyyətlərdə yardım göstərmişdi. 1906-cı ilin əvvəlində Bakı kişi gimnaziyasının rəhbərliyi, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin ödənişi əsasında öz yerlərindən uzaq düşmüş müsəlman şagirdlərə dərslərdə iştirak etmək dəvəti vermişdilər.





**1914-cü ilin aprel ayında** Nağıyevin rəhbərliyi ilə "Səfa" Cəmiyyətinin idarə heyətinin iclasında təhsil haqqının ödənilməməsinə görə qovulan Kiyev Universitetinin 25 nəfər müsəlman tələbəsinə yardım məsələsi müzakirə edilmişdi. Cəmiyyətin vəsaitindən tələb olunan məbləğ ayrılmış və universitetin rektoruna göndərilmişdi. Azərbaycanın rayonlarında öz uşaqlarının təhsil haqqını ödəyə bilməyən valideynlər üçün Cəmiyyət fəaliyyət göstərirdi.

Beləliklə, XX əsrin əvvəllərində fəaliyyət göstərən Cəmiyyət 1914-cü ildə "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin İdarə heyətinin iclasında Petroqarada Müsəlman Konqresinin nümayəndəsinin göndərilməsi haqda məsələ müzakirə etmişdi. Şura M. Ş. Əsədullayevə Cəmiyyətin adından danışmasına icazə verdi və 6 min rubl ayrılması barədə qərar qəbul etdi. 1917-ci ilin 6 aprelində "Müsəlman Xeyriyyə Cəmiyyəti"inin görüş otağında müsəlmanların icra təşkilatları Şurasının iclası keçirildi. Bu iclasda 45 nümayəndə iştirak etmişdi. Komitənin müvəqqəti fəaliyyəti haqda hesabatı sədr M. Q. Hacıbəyli verdi. Komitənin layihəsinə görə, Qafqaz Müsəlmanları arasında azadlıqlarını və onların yeni sistemə hazırlanmasını gücləndirmək üçün ilk növbədə bir kənd komitəsi yaratmaq lazım idi. Bu layihəni həyata keçirmək üçün müsəlmanların ictimai qurultayı təyin edilmişdi. 15 apreldə, saat 11:30-da müsəlmanların qurultayının təntənəli açılışı keçirildi. Qurultayı Şuranın müvəqqəti icra komitəsinin sədri M. Hacıbəyli açdı. Bu iclasda A. M. Topçubaşov, N. Nərimanov, İ. Heydərov, N. Yusifbəyli, F. Xoyski, M. Q. Hacıbəyli, M. Ə. Rəsulzadə, İ. Qabulov, M. M. Axundov, M. Mahmudov, N. Ağayev, M. Mehdiyev katibliyə daxil idilər.

**Qurultayda Qafqaz müsəlmanlarının sosial proqramları ilə yanaşı, təhsil proqramları da müzakirə olundu.**

# 1918-1920-Cİ İLLƏRDƏ - AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ FƏALİYYƏT GÖSTƏRMİŞ XEYRİYYƏ TƏŞKİLATLARI

## 1. "Yaşıl Qələm" Cəmiyyəti

1919-cu ilin avqustun 26-da Məclisi – Məbusanın qiraət zalında Seyid Hüseyn Sadıq əfəndinin rəhbərliyi ilə 35 nəfər ədib və mühərririn iştirakı ilə "Yaşıl Qələm" Cəmiyyəti təsis edildi. "Yaşıl qələm" ədəbi cəmiyyətinin fəaliyyəti haqqında ilk dəfə ciddi araşdırma aparmış filologiya elmləri doktoru, professor Şamil Vəliyev 80-dən çox üzvü öz sıralarında birləşdirən bu qurumun gördüyü işlərin tarixi əhəmiyyətini yüksək qiymətləndirərək yazırdı: "Yaşıl Qələm" ədəbi cəmiyyəti müasir ədəbi prosesin inkişaf qanunauyğunluqlarını öyrənmək və şərh etmək, ona təkanverici təsir göstərməklə kifayətlənmir, eyni zamanda klassik Azərbaycan və dünya ədəbiyyatının ən nadir incilərini təbliğ etməyi əsas vəzifə sayırdı". Onu da qeyd edək ki, cəmiyyətin üzvləri milli ədəbiyyatın janr palitrasını əlvanlaşdırmağa çalışır, mövzu və ideya məhddudiyyətinin əleyhinə çıxırdılar. Burada lirik şeir, dram əsərləri və tənqidi yazılar ətraflı müzakirə olunur, dövrün ictimai-siyasi problemlərinin bədii həllinə mühüm əhəmiyyət verilirdi.

**2."İslam incəsənəti abidələrini sevənlər və qoruyanlar"** (təsisçilər: memar Zivər bəy Əhmədbəyov və mühəndis Ömər bəy Abıyev).

3. **"Şəhər bağlar cəmiyyəti"** (təsisçi və təşəbbüsçü Zivər bəy Əhmədbəyov. Bakının abadlaşdırılması məqsədi ilə yaradılan cəmiyyət).





4. **"Əski Şirvan" cəmiyyəti** (təsisçi və təşəbbüsçü Zivər bəy Əhmədbəyov). Ermənilərin basqını nəticəsində viran edilmiş Şamaxı şəhərinin bərpası üçün yaradılmış cəmiyyət;
5. Azərbaycan Tələbə İttifaqı
6. Bakı Həmkarlar İttifaqları Şurası;
7. Bakı İctimai Təşkilatlar Şurası və onun Müvəqqəti; İcraiyyə Komitəsi;
8. Bakı Quberniyasının Müsəlman Əhalisini Savadlandırma Cəmiyyəti;
9. Bakı Mülk Sahibləri İttifaqı;
10. Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti;
11. Bakı Müsəlman İctimai Təşkilatları Komitəsi;
12. Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti;
13. Bakı Müsəlman Maarif Cəmiyyəti;
14. Bakı Neft Cəmiyyəti;
15. Bakı Neft Sənayeçilər Qurultayı Şurası;
16. Bakı Şəhər Həkimlər Cəmiyyəti;
17. Bakı Şəhər və Xalq Məktəblərinin Şagirdlərinə Yardım Cəmiyyəti;
18. Bakı Ticarət-Sənaye İttifaqı;
19. Bakı Universiteti Tələbələrinin Qarşılıqlı Yardım Cəmiyyəti;
20. Gəncə Müsəlman Xeyriyyə Cəmiyyəti;
21. Gəncə Müsəlman Milli Komitəsi, Həkimlərə Yardım Bürosu;
22. "Xalq evləri" Cəmiyyəti;
23. "Xalq əyləncələri" Cəmiyyəti;
24. Xəzər İstehlak Cəmiyyətləri İttifaqı;
25. İctimai Təşkilatların İcraiyyə Komitəsi;.
26. İrəvan Quberniyası Müsəlmanlarının Həmyerliləri Cəmiyyəti;

27. Jurnalistlər və Ədiblər İttifaqı;
28. Kəndli İttifaqı;
29. Kooperasiya-topdansatış Əməliyyatları Cəmiyyəti;
30. Kustar Neftçıxaranların Birləşmiş İttifaqı;
31. Qafqazda Slavyan-Rus Cəmiyyəti Şurası;
32. "Qardaş köməyi" İctimai Təşkilatı;
33. Lənkəran Şəhəri Tələbə və Abituriyentlər İttifaqı;
34. Mərkəzi Ev Komitəsi (Sentrodom) ;
35. Müsəlman Aktyorlar Cəmiyyəti;
36. Müsəlman Dram Cəmiyyəti;
37. Müsəlman Xeyriyyə Cəmiyyəti;
38. Müsəlman Qadınlar Xeyriyyə Cəmiyyəti;
39. Müsəlman Milli Komitələri, Müsəlman Şərqini Öyrənən Cəmiyyət;
40. Müsəlman Zəhmətkeş Ziyalılar İttifaqımaarif Cəmiyyəti.
41. "Nicat" Bakı Müsəlman Maarif Cəmiyyəti;
42. Rus Xeyriyyə Cəmiyyəti;
43. Rusiya Müsəlmanları Türk-Tatar Millətlərinin Hüquq Müdafiə Cəmiyyəti;
44. "Səadət" Xeyriyyə Cəmiyyəti;
45. "Səfa" Mədəni-maarif Cəmiyyəti;
46. Slavyan-Rus Cəmiyyəti;
47. Texniki Cəmiyyət;
48. Ticarət-Sənaye İttifaqı;
49. Türk Ocağı Mərkəzi;
50. "Uşaq evi" Xeyriyyə Cəmiyyəti;
51. "Uşaq həkimləri" Dərnəyi;
52. "Uşaq ölümü ilə mübarizə " Cəmiyyəti;
53. Uşaqlara Yardım Bürosu;
54. "Uşaqları mühafizə" Cəmiyyəti;
55. Yaxın Şərqdə Amerika Yardımı Cəmiyyəti;
56. "Yaşıl qələm" Cəmiyyəti;





# *AZƏRBAYCANIN TANINMIŞ MİLYONÇU–XEYRİYYƏÇİLƏRİ*

## HACI ZEYNALABDİN TAĞIYEV (1838-1924)



- 1838-ci ildə Bakıda başmaqçı ailəsində anadan olub .
- On yaşından başlayaraq palçıq daşımaq, daş yonmaq və bənnalıqla, podratçılıqla məşğul olub.
- Sonradan aldığı neft quyusu fontan vurur və onu məşhur milyonçu edir.
- 1896-cı ildə Bayıldakı 20 milyon dəyərində olan zavod və mədənlərini satıb bez-parça fabriki də tikdirməyə başlayır və bu işi 1900-cü ildə başa çatdırır. Bu, Zaqafqaziyada ilk Toxuculuq fabriki sayılırdı.
- 1916-cı ildə H. Z. Tağıyev Bakı – Şollar Su kəmərini çəkdirib başa çatdırır. Hacının təkidi ilə hələ 1904-cü ildə ingilis – amerikan firması kəmərin çəkilişinə başlamışdı.
- 1901-ci ildə Zaqafqaziyada ilk Qız Məktəbini tikdirir.
- 1897-ci ildə "Kaspi" qəzetini mətbəəsi ilə birlikdə alaraq qəzeti öz hesabına çap etdirir.
- Onun vəsaiti ilə 1905-ci ilin iyunun 7-dən Əlibəy Hüseynzadə və Əhmədbəy Ağayevin redaktorluğu ilə

"Həyat" qəzeti, 1906-cı ilin noyabrın 1-dən isə "Füyuzat" jurnalı çap edilir.

- 1883-cü ildə teatr binasını tikdirir və bu, xalq arasında Tağıyev teatrı kimi şöhrət qazanır.
- 1924-cü ilin sentyabrın 1-də 86 yaşında Mərdəkandakı bağ evində vəfat edib.

## H. Z. TAĞIYEVİN XEYRİYYƏ CƏMİYYƏTLƏRİNDƏ FƏALİYYƏTİ

- 1898-ci ildə Peterburqda ehtiyacı olan tələbələrə kömək məqsədi ilə Müsəlman Xeyriyyə Cəmiyyəti yaradılır. Fəxri sədr H. Z. Tağıyev olur. O, cəmiyyətin Fonduna böyük məbləğdə - 11 min rubl pul keçirir.
- Hələ öz fəaliyyətinin başlanğıcında yetim uşaqları oxutdurmaq üçün 38.848 rubl pul xərcləmişdi.
- Yoxsul uşaqların savadlanmasına orta hesabla 3 000 rubl sərf edirdi.
- Yetim və yoxsul uşaqlara – 4 məktəbə hami – müdir olub. Həmin məktəblərə ildə iki min rubl sərf edirdi.
- 1894-cü ildə Mərdəkan və ətraf kəndlərin uşaqları üçün kənd təsərrüfatı meylli məktəb tikdirərək, onun inşasına 31.440 rubl vəsait qoymuşdu. Bundan başqa ildə həmin məktəbin 5 000 rublluq məsrəfini də ödəyirdi.
- Azərbaycanlı cavanları Rusiyanın və xarici ölkələrin ayrı-ayrı şəhərlərində ali texniki və humanitar biliklər almağa göndərirdi. Bu gənclər sırasında N. Nərimanov, M. Əzizbəyov, S. Mehmandarov, F. Rüstəmbəyov və başqaları da vardı.





## ŞƏMSİ ƏSƏDULLAYEV (1840-1913)



- 1840-cı ildə Bakının Əmircan kəndində anadan olub.
- Əvvəl əkinçiliklə məşğul olub, sonradan isə Suraxanıda neft çıxarılması və kerosin emalı ilə məşğul olan rus taciri Kokorevin yanında işlər müdiri vəzifəsinə yüksəlib.
- 15 il müddətində neft və duz podratçılığı ilə məşğul olduqdan sonra xeyli qazanc əldə edir, kerosin zavodu açır.
- 1890-cı ildə neft işi ilə məşğul olan bir neçə nəfərlə birlikdə şirkət təşkil edir.
- 1891-ci ildə neftin Xəzər vasitəsi ilə daşınamsı sahəsində Bakı neft kapitalistləri arasında ilk dəfə olaraq buxar oxunu (iki və üç-dörd dorlu yelkənli gəmi) sifariş verir.
- 1895-ci ildə təzə aldığı torpaq sahələrindən birində neft fontan vurur. Fontan hər gün altı yüz min pud neft verir.
- Ş. Əsədullayevin Volqa boyu şəhərlərində, Moskvada, Polşada, habelə Orta Asiyada, İranda çoxlu sayda neft anbarları vardı.
- 1903-cü ildə Moskvaya köçür. Peterburqda və Moskvada bir neçə yerdə mülklər tikdirir. Xeyriyyə işləri ilə məşğul olur, yoxsul uşaqlar üçün məktəb açır.
- 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar Tiflis Müəllimlər İnstitutunda öz adına iki təqaüd təyin etdirir.

- 1913-cü ilin 21 aprelində Yaltada günvurmadan 72 yaşında vəfat edib. Bakıda dəfn olunub. Parisdə yaşamış azərbaycanlı yazıçı Ümmülbanu onun nəvəsidir.
- Ş. Əsədullayevin Mərdəkanda XIX əsrin sonlarında tikdirdiyi əzəmətli bağını isə sovet hökuməti müsadirə edib sanatoriyaya çevirmişdi.

## ŞƏMSİ ƏSƏDULLAYEVİN XEYRİYYƏ CƏMİYYƏTLƏRİNDƏ FƏALİYYƏTİ

- Moskvada yaşadığı dövrdə ciddi xeyriyyə işləri ilə məşğul olur. Yoxsul uşaqlar üçün məktəb açdırır.
- Moskvada hazırda Kiçik Tatar döngəsində olan 8 saylı evi də Ş. Əsədullayev tikdirib, o zaman təzə yaradılmış olan Tatar mədəniyyət cəmiyyətinə bağışlamışdı. Vaxtilə bu binada tatar məktəbi, tatar kitabxanası, konsert salonu və yetimlər üçün uşaq evi olub.
- 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar Tiflis Müəllimlər İnstitutunda öz adına iki təqaüd təyin etdirir.





## MURTUZA MUXTAROV
## (----1920)



- Bakının Əmircan kəndində anadan olub. Adi fəhlədən neft maqnatı səviyyəsinə yüksəlib.
- Onun adı daha çox Bakıda neft çıxarılması texnologiyasının inkişafı ilə bağlıdır. O, diplomsuz neft mühəndisi kimi şöhrət qazanıb.
- 1890-cı ildə yaratdığı "Podrat qazma" kontoru Bakının Balaxanı, Suraxanı, Ramana və Sabunçu neft rayonlarında neft quyularının qazılmasında böyük rol oynayıb.
- 1896-cı ildə o, qazma və standartların endirilib qaldırılması kimi əsas və başqa köməkçi işləri icra edən xüsusi bir dəzgah yaratmış və bundan ötrü patent almışdı.
- İndi Bakıda məşhur olan "Səadət" sarayını 1911-1912-ci ildə tikilib və burada yaşayıb. Mühəndis Ploşkonun layihəsi əsasında tikilmiş bu bina indi də şəhərə bəzək verir.
- 1905-1911-ci illərdə Cənubi Azərbaycanda davam edən milli azadlıq hərəkatına – onun başçıları olan Səttar xana və Bağır xana öz rəğbətini bildirib, onlara gizli yollarla kömək edir.
- 1908-ci ilin 10 oktyabrında Qafqaz Canişinliyindən Bakıya göndərilən gizli məktubda Səttar xana və Məşrutə inqilabına kömək edənlər sırasında onun da adı hallanır.
- 1920-ci ilin 27 Aprelindən sonra Bakını talan edn hərbi bolşeviklərdən ikisi onun evinə hücum çəkir. M.

Muxtariv onlardan birini silahla vurub öldürür. Sonra da əsəbi vəziyyətdə özünü güllə ilə vurur.

## MURTUZA MUXTAROVUN XEYRİYYƏ CƏMİYYƏTLƏRİNDƏ FƏALİYYƏTİ

- Bakıda fəaliyyət göstərən əksər xeyriyyə cəmiyyətlərinin işində fəallıq göstərir.
- 1910-cu ildə Əmircan kəndində görkəmli memar Zivər bəy Əhmədbəyovun daiştirakı ilə əzəmətli məscid binası tikdiri.
- 1913-cü ildə Mərdəkanın Pirhəsən adlanan yerində axund Mirzə Abu Turabın qəbri üstündə künbəz, Vladiqafqaz şəhərində məscid tikdirir.
- 1913-cü ildə Azərbaycan səhnəsinin böyük aktyoru Hüseyn Ərəblinski vərəm xəstəliyinə tutularkən M. Muxtarov ona 700 manat verib müalicəyə göndərmişdi. Müalicə olunaraq geri qayıdan H. Ərəblinski "Bakı" qəzeti vasitəsi ilə ona minnətdarlığını bildirmişdi.
- Saratovda olduğu zaman küçədə oxuyan, sonradan məşhur opera artisti olmuş Fatma Muxtarovanın konservatoriyada təhsil almasına kömək edir.
- 1908-ci ildə iyun ayının 3-də fəaliyyətə başlamış "Tərəqqi" qəzeti "İrşad" mətbəəsində M. Muxtarovun maddi dəstəyi ilə nəşr edilir. O, "İrşad" mətbəəsini pulla alıb, daimi istifadə üçün Haşım bəy Vəzirovun sərəncamına verir.





## MUSA NAĞIYEV (1842-1919)



- 1842-ci ildə Bakı quberniyasının Biləcəri kəndində anadan olub.
- İlk təhsilini kənd mollaxanasında aldıqdan sonra kənddə atasına köməklik edir.
- İlk topladığı pula Qaraşəhərdə əli ilə işləyən kiçik bir kerosin zavodu alır. Sonra neftli torpaq sahələrini də alıb neft istehsalına başlayır.
- İndiki İstiqlaliyyət küçəsində tikdirdiyi bina da İsveçrədə vəfat edən oğlu İsmayılın şərəfinə "İsmailiyyə" adlandırılır.
- Bundan əlavə o, 28 May küçəsində qoşa imarətlər, qırmızı kərpicdən əzəmətli bina, Səməd Vurğun küçəsində Qış klubu (Zabitlər evi), "Astoriya" və "Yeni Avropa" mehmanxanalarını da tikdirmişdir.
- 1913-cü ildə öz pulu ilə 225 çarpayılıq xəstəxana tikdiri və o xəstəxana bu gün də qalmaqdadır.
- M. Nağıyev bəhailiyə daha çox inam göstərir və H. Z. Tağıyevlə bağlı məhkəmə prosesində Quran əvəzinə, "Kitabi-Əqdəs"ə and içmişdi.
- M. Nağıyev 1919-cu ilin mart ayında 67 yaşında vəfat edib.

## MUSA NAĞIYEVİN XEYRİYYƏ CƏMİYYƏTLƏRİNDƏ FƏALİYYƏTİ

- M. Nağıyev xeyriyyə cəmiyyətlərinin əksərində iştirak edib.
- 1913-cü ildə şəhər xəstəxanası tikintisi üçün 300 000 (üç yüz min) manat, Bakı Realnı məktəbinin abadlığı, 3-cü mərtəbənin tikilişi üçün, qiraət otağı, kimya kabineti və məktəbin parket döşəməsi üçün 30 000 (otuz min) manat xərcləyib.
- Gəncədə müəllimlər seminariyası üçün 15 000 (on beş min) manat xərcləyib. Şamaxıda Real məktəbinə 1300 (min üz yüz) manat xərcləyib.
- "Səfa" cəmiyyətinə ildə 500 manat xərcləyib.
- Tiflis məktəbinə 500 manat xərcləyib.
- "Nur" mədrəsəsinə 500 manat xərcləyib.
- Semireginsk əyalətində zəlzələdən zərər çəkənlərə 1000 manat xərcləyib.
- 1913-cü ildə müsəlman xeyriyyə cəmiyyətlərinin kassasına 253 000 (iki yüz əlli üç min) manat pul köçürüb
- 1908-ci ildən ölümünüdək Bakı Realnı məktəbinin hamisi idi.





## İSA BƏY HACINSKİ



- İki məşhur qardaş olublar: İsa bəy və Kazım bəy Hacınskilər.
- Xəzər dənizindəki Çələkən adası bu qardaşların ixtiyarında olub.
- Bibiheybətdə mədənləri olub.
- İsa bəyin ən əzəmətli binası Sahil küçəsindəki Qız qalasının yanında Roma və Qotik üslubunda tikilmiş əzəmətli bina idi.
- 1912-ci ildə Mərdəkanda dövrələmə hasar içərisində alman və modern üslubunda bir imarət tikdirmişdi.

## İSA BƏY HACINSKİNİN XEYRİYYƏ CƏMİYYƏTLƏRİNDƏ FƏALİYYƏTİ

- 1904-cü ildə Bakıda "Hidayət" cəmiyyəti yaradılır. Bu cəmiyyət dini xarakterdə idi. İsa bəy Hacınski bu cəmiyyətin İdarə Heyətinin üzvü idi.

# AĞABALA QULİYEV
# (1862-?)



- 1862-ci ildə Bakının Keşlə kəndində anadan olub.
- Uşaqlıqdan dəyirman sahəsində çalışıb. Nəhayət varlandıqdan sonra dəyirman işini yenidən qurub, istehsal qüvvəsini artırır.
- O, Şimali Qafqazda un, düyü təmizləyən, kraxmal dəyirmanları tikdirib işə salır. Vladiqafqazda, Stavropolda, Samarada, Qroznıda tikdirdiyi dəyirmanlar ona bütün Rusiyada şöhrət qazandırır.
- 1916-cı il fevralın 13-də Bakıda çörəyin satılmaması ucbatından qadınların "Babıy bunt" kimi tanınan aclıq qiyamı baş verir. Onun əvvəlcədən taxıl ehtiyatı görüb anbarlara vurdurması işi özünü doğruldur.
- 1905-ci il Rus inqilabından sonra A. B. Quliyevin görüşlərində qəribə dəyişiklik yaranır. O, qatı mürtəce olan Hacı Aslan Aslanbəyovun təsiri altına düşərək qaragüruhçulara meyl edir. Həmin ilin noyabrında Bakıda yaranmış "Yakor" təşkilatına daxil olur.
- 1920-ci ilin martında A. B. Quliyev İrana gedir. O, İranda olarkən Bakı bolşeviklər tərəfindən işğal edilir.
- A. B. Quliyev ailəsini Bakıdan çıxarda bilir. Bir müddət Təbrizdə, sonra İstanbulda və yenidən İranda yaşayıb. O, burada dünyadan köçüb.





# AĞABALA QULİYEVİN XEYRİYYƏ CƏMİYYƏTLƏRİNDƏ FƏALİYYƏTİ

- 1905-ci ildə təşkil edilmiş "Müsəlman Xeyriyyə Cəmiyyəti"nin ilk təsisçilərindən olub.
- 1917-ci ilin aprel-may aylarında Bakıya Türkiyədən, Rum elindən çoxlu qaçqınlar gəlmişdilər. Onları yerləşdirmək, isti paltarla və ərzaqla təmin etmək sahəsində xeyli iş görmüşdü.

## ƏJDƏR BƏY AŞURBƏYOV



- Əjdər bəy Aşurbəyov Bakının Sabunçu kəndində anadan olub. Məşhur və geniş yayılmış Aşurbəyovlar nəslindəndir.
- O, neft sahəsində ilk fəaliyyətə ötənlərin sonlarından başlayıb.
- 1893-cü ildə Sabunçudakı mədənlərində bir quyusu fontan vurur. Bu, onu dərhal milyonçular sırasına qaldırır.
- 1915-ci ildə Sabunçuda Nobelə icarəyə verdiyi neft mədəni ilə bağlı müqavilə sona yetir və özü mədənləri idarə edir.
- Səməd Vurğun küçəsindəki Göy məscidi Ə. Aşurbəyov tikdirib.
- Bakıda vəfat edib.





## AZƏRBAYCANIN XEYRİYYƏ TƏŞKİLATLARININ FƏAL ZİYALILARI

## Əli bəy Hüseynzadə

*(1864 – 1940)*



- *Böyük mütəfəkkir Əli bəy Hüseynzadə 24 fevral 1864-cü ildə Salyanda anadan olub.*
- *Tiflisdəki Qafqaz Ruhani İdarəsinin nəzdində olan molla məktəbində və Rus Gimnaziyasında təhsil alıb. 1885-ci ildə Sankt-Peterburqa gedib oradakı universitetin fizika-riyaziyyat fakültəsində təhsil alıb.*
- *1890-cı ildə İstanbulda hərbi-tibb məktəbinə daxil olub və "İttihadi-tərəqqi" cəmiyyətində fəallıq göstərib.*
- *1905-ci ilin iyun ayında "Həyat" qəzetini, 1906-cı ildə "Füyuzat" jurnalını Bakıda nəşr etdirib.*
- *1908-ci ildə ittihadçı dostlarının dəvəti ilə Türkiyəyə gedir. İstanbul Darülfünunda professor olaraq çalışır. 1918-ci ildə o, Ə. Ağaoğlu ilə birlikdə Türkiyə hökuməti tərəfindən Azərbaycanda olub, Nuru Paşa ilə görüşüb. 1925-ci ildə Ə. Hüseynzadə Bakıda keçirilən I Türkoloji qurultayda iştirak edib.*
- *Ə. Hüseynzadə 1940-cı ildə martın 17-də Türkiyədə vəfat edib.*

# Əlimərdan bəy Topçubaşov

*(1865-1934)*



*•Əlimərdan bəy Topçubaşov 1865-ci ildə Tiflisdə, qulluqçu ailəsində anadan olmuşdur.*

*•İlk təhsilini Tiflis gimnaziyasında, ali təhsilini Peterburq Universitetinin tarix-filalogiya və hüquq fakültəsində almışdır.*

*•Birinci rus inqilabı dövründə xalqın azadlıq mübarizəsinə qoşulmuş,çar hökumətinin irticasına qarşı tədbirlərdə iştirak etmişdir.*

*•Bakı Dumasının sədri olmuş,Rusiyada yaşayan müsəlmanların vahid təşkilatının –"İttifaqi - müslümün" yaradılması və fəaliyyətində iştirak etmiş,I-IV qurultayların keçirilməsində böyük rol oynamışdır.*

*•AXC-nin yaranmasında əvəzsiz xidmətləri olmuş, fövqəladə səlahiyyətli nazir kimi İstanbula göndərilmişdir.*

*•Azərbaycanın ilk parlamentinin sədri olub.*

*•Azərbaycanın müstəqilliyini tanıtmaq məqsədilə Parisə yola düşən nümayəndə heyətinə rəhbərlik etmişdir.*

*•1920-1934-cü illərdə Parisdə mühacir həyatı yaşamış,Azərbaycanın müstəqilliyi uğrunda mübarizəni burada davam etdirmişdir.*

*•1934-cü il noyabrın 5-də Parisin Sen-Deni rayonunda vəfat etmiş və Müqəddəs Kloud qəbirstanlığında dəfn olunmuşdur.*





# Əhməd bəy Ağaoğlu

*(1869-1939)*



*•Əhməd Ağaoğlu (Əhməd bəy Ağayev) 1869-cu ildə Şuşa şəhərində anadan olub.*

*•İlk təhsilini Şuşada "realnıy məktəb"də alıb. Tiflis gimnaziyasında oxuduqdan sonra,ali təhsil almaq üçün Sankt-Peterburq və Parisin Sarbonna universitetlərinə daxil olmuş və müvəffəqiyyətlə bitirmişdir.*

*•Transqafqaziya seyminə keçirilən seçkilərdə müsəlman fraksiyasından üzv seçilib.*

*•1905-ci il erməni-müsəlman qarşıdurmalarının qarşısının alınmasında böyük rol oynamışdır.Erməni daşnaklarına qarşı "Difai" adlı özünümüdafiə təşkilatı yaratmışdır.*

*•Çar qüvvələrinin təqibləri səbəbindən bir müddət İstanbulda yaşamışdır. "Türk ocağı" türk milli hərəkatının aparıcı üzvlərindən biri olmuş,İstanbul Darülfununda müəllimlik etmişdir.*

*•Osmanlı Məclisi Məbusanına (Millət Məclisi) Afyon nümayəndəsi seçilmiş, "İttihad və Tərəqqi" təşkilatının Mərkəzi-Ümumisinin üzvü olmuşdur.*

*•1918-ci ildə vətənə qayıtmış,1919-cu ildə Paris sülh konfransında AXC nümayəndə heyətinin tərkibində iştirak etmişdir.*

*•Şura hökuməti qurulduqdan sonra Türkiyəyə getmiş, "Hakimiyyəti-Milliyə" qəzetinin baş redaktoru və M.K.Atatürkün yaxın məsləhətçisi kimi geniş fəaliyyət dairəsində çalışmışdır.*

*•Birinci Dünya müharibəsinin sonunda ingilislər tərəfindən Maltaya sürgün edilib.*

*• "Hindistan və İngiltərə", "Mən nəyəm?", "Könülsüz olmaz", "Sərbəst insanlar ölkəsində" və s.kimi əsərlər yazmışdır.*

*1939-cu ildə Türkiyədə vəfat etmişdir.*





# Ömər Faiq Nemanzadə

**(1872-1937)**



*•Ömər Faiq Nemanzadə 1872-ci ildə Ahıska (Axalsıx) Qəzasının Azqur kəndində anadan olmuşdur.*

*•İlk təhsilini kənd camesində almış, sonra İstanbula gedərək «Fateh» məktəbində təhsilini davam etdirmişdir.*

*•Şəkidə dünyəvi elmlərdən dərs demiş, Şamaxıda milli məktəbin təşkil edilməsində iştirak etmişdir.*

*•Tiflisdə çıxan «Şərqi – Rus» qəzetində çalışmışdır.*

*•«Mola Nəsrəddin» jurnalının nəşr olunmasında böyük rolu olmuşdur. «Açıq söz», «Tərəqqi», «İrşad», «Həyat» kimi mətbuatı orqanlarında çıxış etmişdir. Bu imzalarla yazırdı – Ümidvar, Ümid, Lağlağı, Mozalan.*

*• «Gürcü işi» adlı əməliyyatın başlanması ilə əlaqədar dərhal ictimai – siyasi fəaliyyətini dayandırmış, Gəncəyə köçüb, qəzet və jurnallarla sıx əməkdaşlıq etmişdir.*

*•Cənub – Qərbi Qafqazda ilk müstəqil türk respublikası «Ahıska hökuməti – müvəqqətəsi»nə hökumət rəisi seçilmişdir. Hakimiyyəti ələ keçirmiş menşeviklər tərəfindən həbs edilmiş, sonra xalqın təkidi ilə azadlığa buraxılmışdır.*

*•Gəncə Zəraət Texnikumunun direktoru, «Zəhmətkeşlər gözü» jurnalının redaktoru, «Yeni fikir» redaksiya heyətinin üzvü kimi vəzifələrdə çalışmışdır.*

*•1937-ci ildə Stalin repressiyasının qurbanı olmuşdur.*

# Haşım bəy Vəzirov

*(1867-1916)*



• *Vəzirov Mir Haşım bəy Mir İman bəy oğlu 1867-ci ildə Şuşa şəhərində anadan olub.*

• *İlk təhsilini molla yanında, sonra isə şəhər məktəbində almışdır.Daha sonra İrəvan Müəllimlər Seminariyasında oxumuşdur.*

• *Bir müddət Şuşada "müsəlman-rus" məktəbinin müdiri vəzifəsində çalışmışdır.*

• *1905-1906-cı illərdə erməni quldurlarına qarşı mübarizə aparmışdır.Bir müddət Stavropolda sürgün həyatı yaşayıb.*

• *Bakıda "İrşad" qəzetinin müvəqqəti redaktoru olub. 1907-ci il aprelin 1-də "Tazə Həyat",sonra isə "Səda" qəzetlərini nəşr etdirmişdi.*

• *1911 – ci ildə həbs olunur.Azadlığa çıxdıqdan sonra bir-birinin ardınca "Qafqazist", "Sədayi-Vətən", "Sədayi-Həqq", "Sədayi-Qafqaz" qəzetlərini nəşr etdirir. "Məzəli" satirik jurnalının mühərriri olub.Tərcüməçi kimi də fəliyyət göstərib.*

• *"Döymə qapımı,döyərlər qapını", "Evlənmək su içmək deyil", "Xan-xan" adlı komediyaların müəlləfidir.*

• *1916-cı ildə dünyasını dəyişib.*





# Məhəmməd Əmin Rəsulzadə

*(1884-1955)*



• *Məhəmməd Əmin Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olub.*

• *İlk təhsilini "Rus-müsəlman" məktəbində almışdır. Buranı bitirdikdən sonra təhsilini Bakı texniki məktəbində davam etdirib.*

• *Azərbaycanda rus müstəmləkə üsul-idarəsinə qarşı gizli mübarizə aparan ilk siyasi təşkilatı-"Müsəlman gənclik təşkilatı"nı yaratmışdır.*

• *Bir müddət İranda və Türkiyədə yaşayıb.*

• *Rusiya parlamentinə Azərbaycan və Türküstandan millət vəkili seçilmişdir.1918-ci ildə yaradılmış Azərbaycan Milli Şurasının sədri seçildi.Mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin banisidir.*

• *AXC-nin süqutundan sonra siyasi,publisistik fəliyyətini Türkiyədə və Avropanın bəzi ölkələrində davam etdirdi.*

• *Mühacirət mətbuatımızın görkəmli nümayəndəsi olub. Onun əməkdaşlıq etdiyi"Yeni Qafqaziyyə", "Azəri türk", "Odlu Yurd", "Bildiriş", "İstiqlal", "Qurtuluş" kimi mətbu orqanları, mühacirət mətbuatımızın önəmli nümunələrdir.*

• *"Əsrimizin Səyavuşu", "İstiqlal məfkurəsi və gənclik", "Çağdaş Azərbaycan ədəbiyyatı" və s. kimi əsərlərin müəllifidir.*

• *1955-ci il martın 6-da Ankarada dünyasını dəyişib.*

# Firidun Bəy Köçərli

*( 1863 – 1920 )*



*•Firidun bəy Əhməd bəy oğlu Köçərli (Köçərlinski) 1863-cü il yanvarın 26-da Şuşada anadan olmuşdur.*

*•İlk təhsilini Şuşada rus məktəbində alıb.1879-1885-ci illərdə Zaqafqaziya Müəllimlər Seminariyasında təhsil alıb, 1895-1918-ci illər ərzində burada dərs deyib.*

*•1870-ci ildə ilk dəfə olaraq Şuşada Mirzə Muxtar tərəfindən Azərbaycan dilində göstərilən tamaşada əsas obrazlardan birini oynamışdır.*

*•Bir müddət Qori seminariyasının Azərbaycan şöbəsinin müvəqqəti təlimatçısı vəzifəsində çalışmış,1918-1920-ci illərdə isə Qazax Müəllimlər Seminariyasının müdiri işləmişdir.*

*•300-dən artıq dərsliyə düzəliş etmiş,nəzəri materialı,hekayələri artırmış,metodika və stilistikanı dəyişdirərək zənginləşdirmişdir.*

*•Gəncə üsyanı yatırıldıqdan sonra XI Ordunun xüsusi şöbəsi tərəfindən 1920-ci ildə güllələnmişdir.*





# Üzeyir Hacıbəyov

*(1885-1948)*



*•Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəyov 1885-ci il sentyabrın 18-də Şuşada (Ağcabədi),kənd mirzəsi ailəsində anadan olub.*

*•İlk təhsilini ikisinifli rus-türk məktəbində almışdır.Sonra Qori Müəllimlər Seminariyasında oxumuşdur.Musiqi təhsilini artırmaq məqsədilə Moskvaya getmiş,burada Flarmonik Cəmiyyətin musiqi kurslarında və Peterburq konservatoriyasında oxuyub.*

*•Bütün müsəlman Şərqində opera sənətinin əsasını qoymuşdur.Azərbaycanda musiqili komediya janrının yaradıcısıdır.*

*•Bakıda azərbaycanlı tələbələr üçün ilk musiqi məktəbini –Azərbaycan Dövlət Türk Musiqi Məktəbini təşkil etmişdir.*

*•Azərbaycan Radio Komitəsi yanında ilk notlu xalq çalğı alətləri orkestri yaratmışdır.*

*•Müasir Azərbaycan elmi musiqişünaslığının əsasını qoymuş,çoxlu məqalələr yazmış,tədqiqatlar aparmışdır.*

*• "Kaspi", "Həyat", "Irşad", "Molla Nəsrəddin" "İqbal" "Tərəqqi", "Həqiqət","Azərbaycan" və s. bu kimi mətbuat orqanlarında "Ordan-burdan", "O yan, bu yan" rubrikası ilə çıxış etmişdir.*

*• "İrsad" və "Azərbaycan" (1918-1920) qəzetlərinin bir müddət redaktoru olmuşdur.*

*•1948-ci il noyabrın 23-də Bakıda vəfat edib.*

# Əbdürrəhim bəy Haqverdiyev

*(1870-1933)*



*• Əbdürrəhim bəy Haqverdiyev 1870-ci il mayın 17-də Şuşada bəy ailəsində anadan olub.*

*• Orta təhsilini Şuşada və Tiflisdə,ali təhsilini isə Peterburqun Yol Mühəndisləri İnstitutunda almışdır.*

*• Şuşada "Hacı Daşdəmir" adlı kiçik bir pyes,Peterburqda "Yeyersən qaz ətini,görərsən ləzzətini" dramını (1892) və "Dağılan Tifaq" faciəsini (1896) yazmışdır.*

*• Bakıda yaşayarkən uzun müddət müəllim və teatr rejissoru kimi fəaliyyət göstərib.1900-1901-ci illərdə "Bəxtsiz cavan" və "Pəri Cadu" əsərlərini yazıb.*

*• "Həyat" qəzetində, "Molla Nəsrəddin" jurnalında müxtəlif yazılarla çıxış etmişdir.*

*• "Marallarım", "Xortdanın cəhənnəm məktubları", "Şeyx Şaban","Xəyalət" və s.kimi əsərlərin müəllifidir.*

*•1933-cü ildə Bakı şəhərində vəfat edib.*





# Nəriman Nərimanov

*(1870-1925)*



*•Nəriman Nəcəf oğlu Nərimanov 1870 – ci il aprelin 14-də Tiflisdə anadan olub.*

*•Qori seminariyasını və Odessa universitetinin tibb fakültəsini bitirmişdir.*

*•Sosial – Demokrat «Hümmət» Təşkilatının rəhbərliyinə daxil olmuş, RSDF(B)P Məramnaməsini türk dilinə çevirmişdir.*

*•1909 – cu ildə həbs olunaraq Astraxan şəhərinə sürgün edilmişdir.*

*•Bakıda fəhlələr arasında təbliğatla məşğul olub.*

*• «Hümmət» Təşkilatı Mərkəzi Komitəsinin Sədri və RSDF(B)P Bakı Komitəsinin üzvü,«Hümmət» qəzetinin baş redaktoru idi.*

*•RSFSR Xalq Xarici İşlər Komissarlığında Şərq məsələləri üzrə Xalq komissarının müavini vəzifəsində çalışmışdır.*

*•AXC – nin süqutundan sonra, Azərbaycan SSR Müvəqqəti İnqilabi Komitəsinin Sədri və Xalq Komissarları Sovetinin sədri, SSRİ Mərkəzi İcraiyyə Komitəsinin Həmsədrlərindən biri seçilmişdir. Azərbaycan SSR-nin ilk Dövlət və Hökumət başçısı olmuşdur.*

*•1925 – ci ildə müəmmalı şəkildə ölmüş və Kremlin divarları yaxınlığında dəfn edilmişdir.*

# Nəcəf bəy Vəzirov

***(1854-1926)***



• *Nəcəf bəy Vəzirov 1854-cü il aprelin 2-də Şuşa şəhərində anadan olub.*

• *İlk təhsilini dini məktəbdə almışdır. Sonra ardıcıl olaraq, Şuşa şəhərindəki mülkiyyə məktəbində, Bakıda real gimnaziyada oxumuşdur.Ali təhsilini isə Moskvada, Petrovski-Razumovski Meşə və Təbiətşünaslıq Akademiyasının Meşəçilik şöbəsində alıb.*

• *Tərtər və Dilicanda meşəbəyi kimi çalışmışdır. Bir müddət Qazaxda mübahisəli işlərə baxan şöbənin katibi vəzifəsində işləmişdir.*

• *Bakıda lazımi imtahanlar verərək,vəkillik vəsiqəsi almış və məhkəmələrdə çalışmışdır.*

• *Xalqın maariflənməsi üçün yeni məktəblərin,tərbiyyə ocaqlarının açılmasında yaxından iştirak etmişdir.*

• *Azərbaycan drammaturgiyasının inkişafında milli teatrın yaradılmasında böyük xidmətləri olmuşdur. Ədəbiyyatımızda faciə janrının əsasını qoymuşdur.*

• *Mətbuatda "Dərviş" imzası ilə çıxış etmişdir.*

• *"Müsibəti-Fəxrəddin", "Yağışdan çıxdıq,yağmura düşdük", "Təzə əsrin ibtidası" və s.kimi əsərlərin müəllifidir.*

• *1926-cı ilin yayında Şamaxıda (Çuxuryurdda) ürək partlamasından vəfat edib. Bakıda dəfn olunub.*





# Əhməd Cavad

**(1892-1937)**



- Azərbaycanın tanınmış şairidir.
- 1892-ci ilin may ayının 5-də Şəmkir rayonunun Seyfəli kəndində anadan olub.
- 1906-1912-ci illərdə Gəncə Müsəlman Ruhani Seminariyasında təhsil alıb.
- 16 yaşından başlayaraq müəllimlik edib.
- 1918-1920-ci illərdə "Qoşma", "Dalğa" şeirlər kitabını çap etdirib.
- 1937-ci ildə həbs edilərək, həmin ilin oktyabr ayının 13-də güllələnib.
- Azərbaycan Respublikası Dövlət Himninin müəllifidir.

# Zivərbəy Əhmədbəyov

## (1873-1925)



- Azərbaycanın tanınmış memarı.
- 1902-ci ildə Peterburq Mülki Mühəndislər İnstitutunu bitirib.
- 1918-1922-ci illərdə Bakının Baş memarı olub.
- Onun layihəsi ilə Bakıda və Bakı ətrafında bir çox gözəl binalar ucaldılıb.
- Bakıdakı Cümə məscidi, Göy məscid, Mixail xəstəxanası (sonralar Əzizbəyov adına doğum evi), "Səadət" məktəbinin binası, Uşaq xəstəxanası ((indiki Elmi-Tədqiqat Ana və Uşaq Mühafizəsi İnstitutunun binası) onun layihələri əsasında tikilib.
- 1918-1920-ci illərdə Bakını azad etmiş türk şəhidlərinə qoyulacaq abidənin də layihə müəllifi olub.





# XEYRİYYƏ QURUMLARINDA FƏALLIQ GÖSTƏRMİŞ AZƏRBAYCAN XANIMLARI



**Ceyran Bayramova** (22.3.1896, Quba rayonunun Zərqova kəndi – 1987, Bakı) – Azərbaycanda qadın hərəkatının veteranı. Şərqdə ilk dəfə olaraq öz mənzilində qadınlar klubu yaratmışdır. Azərbaycanın ictimai – siyasi həyatında fəal iştirak etmiş, Azərbaycan qadınlarının I qurultayının keçirilməsində böyük rol oynamışdır. 30-cu illərdə repressiyaya məruz qalmış, Sibirə sürgün edilmişdir. 1956-cı ildə bəraət almış, Bakıya qayıtdıqdan sonra yenidən ictimai – siyasi həyata qatılmışdır. 2 dəfə Lenin ordeni, Oktyabr İnqilabı ordeni ilə təltif edilmişdir.



**Şəfiqə Əfəndizadə** (1882, Gürcüstan Respublikasının Axaltsixe rayonunun Aşğuri kəndi – 29.7.1959, Bakı) – Azərbaycanın ilk maarifpərvər qadınlarından biri, publisist, yazıçı və müəllim. Bakı birinci rus – müsəlman qız məktəbində (1901 – 10), ikinci rus – tatar (azərb.) şəhər qız məktəbində (1910 – 20), ikillik pedaqoji kursda (1915-16), darülmüəllimatda (1920-26), Azərbaycanın partiya və sovet məktəbində (1923-27) dərs demişdir. Müxtəlif qəzet və jurnallarda xalqı maarifləndirməyə ça-

ğıran, uşaqların tərbiyəsindən və qadın azadlığından bəhs edən məqalə və hekayələrlə çıxış etmişdir. "İki yetim" adlı kitabı var (1914). "Şərq qadını" jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Zaqafqaziya müsəlmanlarının qurultayında çıxış etmişdir (1917). Azərbaycan SSR MİK-nin (3-cü çağırış) üzvü olmuşdur.



**Fatma xanım Kəminə** (1841, Şuşa – sentyabr, 1898, Şuşa) – Azərbaycan şairi. Mirzə Fatma xanım adı ilə də tanınmışdır. Azərbaycan və fars dillərində yazmışdır. X. B. Natəvanın yaxın rəfiqəsi olmuş, "Məclisi – fəramuşan" və "Məclisi – üns" ədəbi məclislərində fəal iştirak etmişdir. Ədəbi irsi dövrümüzə tam çatmamışdır. S. Ə. Şirvani, F. B. Köçərli və b. onun yaradıcılığını yüksək qiymətləndirmişlər.



**Qonçabəyim** (təqr. 1827, Naxçıvan – ?). Azərbaycan şairi. "Naxçıvanın sonuncu xanı" olan Ehsan xanın qızıdır. 1837-ci ildə Naxçıvanda açılmış rus məktəbinə daxil olmuş, rus və fars dillərini öyrənmiş, Şərq ədəbiyyatına maraq göstərmişdir. "Qönçeyi – ülfət" ədəbi məktəbinin iştirakçılarından olmuşdur. "Bəyim" təxəllüsü ilə lirik şeirlər yazmışdır. "Şahzadə İbrahim" dastanına daxil edilən və Bəyimin dilindən deyilən şeirlərin bir qisminin ona aidliyi





ehtimal olunur. Ehsan xanla tanış olan gürcü şairi N. Barataşvili Naxçıvanda ikən onunla görüşmüş (1845), Yaradıcılığı ilə maraqlanmış, ona şeir həsr etmiş ("Qonçabəyimin nəğməsi"), bir şeirini gürcü əlifbası ilə köçürərək, tərcümə olunmaq üçün Tiflisə göndərmişdi. O, həmin şeirin məclislərdə oxunması üçün xanəndə Səttara və şəkili Cəfərə verilməsini məsləhət görmüşdü. İ. K. Yenikolopovun yazdığına görə, Barataşvilinin ondan tərcümə etdiyi bir şeiri xanəndə Səttar gürcü dilində ifa edirmiş.



**Hənifə xanım Məlikova – Abayeva** (5. 5. 1856, Nalçik – 1929, Bakı) – Azərbaycanın ilk maarifçi qadınlarından biri. Tiflisdə "Müqəddəs Nina" qız məktəbində təhsil almış, həyat yoldaşı H. Zərdabi ilə birlikdə "Əkinçi" qəzetinin nəşrində fəal iştirak etmişdir. Öz mənzilində məktəb açmış (1880), yaşlılara dərs demiş (1904-08), Bakıdakı "Nicat" cəmiyyəti qadın bölməsinin yaradıcılarından olmuşdur. Bakıda ilk müsəlman qız məktəbinin (1901-5), şəhər dövlət 1-ci rus – tatar (rus – Azərb.) qız məktəbinin (1909-19) müdiri işləmişdir.

**Hədiyyə Məmmədzadə** (1892, Gürcüstanın Asxuri kəndi – 1951, Bakı) – müəllim, maarifçi, Bakıda 2-ci rus – müsəlman qız məktəbində oxumuş, 1909-cu ildə "Səadət" Cəmiyyətinin Ağdaşda açdığı ilk qız məktəbində müdir işləmişdir. "Məktəb", "İşıq" jurnallarında çıxış etmiş, xalqı maarifə çağırmışdır. 1914-18-ci illərdə Tiflisdə Qafqaz müsəlman qadınları "Xeyriyyə cəmiyyətinin" təşkil etdiyi uşaq himayədarlığı evində tərbiyəçi işləmişdir. Ali təhsil

aldıqdan sonra Bakıda, Zaqatalada və s. yerlərdə müəllimlim etmişdir.



**Xurşudbanu Natəvan** (avqust, 1832, Şuşa – 2. 10. 1897, Şuşa, Ağdamda "İmarət" qəbirstanında dəfn olunmuşdur) – Azərbaycan şairi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. "Xan qızı" adı ilə tanınmışdır. Bibisi Gövhər xanım tərbiyə edib böyütmüş, ona musiqini, şeiri, rəsmi sevdirmişdir. Şərq dillərini öyrənmiş, Firdovsi, Nizami, Sədi, Hafiz, Nəvai, Füzuli və b. klassiklərin əsərlərini oxumuşdur. Dövrünün qabaqcıl ziyalılarından olan Xasay xan Usmiyevə ərə getmiş, Dağıstanı gəzmiş, Tiflisdə, Bakıda olmuşdur. 1858-ci ildə Bakıda A. Düma (ata) ilə görüşmüş, öz əl işlərindən ona hədiyyə vermişdir. Düma isə ona nəfis fiqurlu şahmat bağışlamışdır. 1872-ci ildə Şuşada "Məclisi – Üns" ədəbi məclisini təşkil etmişdir. 1873-cü ildə Şuşaya su kəməri çəkdirmişdir; bu su kəməri "Xan qızı bulağı" adı ilə məşhurdur. Araz çayından Mil düzünə qədər su kəməri çəkdirməyə təşəbbüs göstərmişdir. Yaradıcılığa 50-ci illərdən ənənəvi Şərq mövzu və janrlarında şeirlərlə başlamışdır. Qəzəllərində məhəbbət, təbiət gözəllikləri ("Gülün", "Qərənfil" və s.) tərənnüm olunur. 16 yaşlı Mir Abbasın ölümündən sonra bədbin ruhlu şeirl..r yazmışdır ("Ağlaram", "Olaydı", "Getdi", "Sənsiz", "Ölürəm" və s.). İstedadlı rəssam olmuşdur. Onun bədii tikmələri, "Gül dəftəri" (1886) adlı albomundakı rəsmlər buna sübutdur. Bakıda heykəli, Şuşada büstü, Ağdamda isə qəbirüstü abidəsi qoyulmuşdur.





## İLK XEYRİYYƏ TƏŞKİLATLARININ YARADICILARI VƏ FƏALLARI

1. Hacı Zeynalabdin Tağıyev ("Nəşri-maarif", "Nicat", "Səadət", Peterburqdakı cəmiyyətin fəxri sədri)
2. Murtuza Muxtarov ("Nəşri-maarif", "Nicat")
3a. İsa bəy Aşurbəyov ("Nəşri-maarif", "Nicat")
3b. Musa Nağıyev ("Nəşri-maarif", "Nicat", "Səadət")
3g. Mirzə Əsədullayev (milyonçu, "Səadət")
3. Həsən bəy Zərdabi ("Müsəlman Xeyriyyə cəmiyyəti)
4. Məhəmməd Əmin Rəsulzadə ("Nicat", "Səfa")
5. Həsən bəy Ağayev ("Nicat")
6. Nəriman Nərimanov ("Nicat")
7. Əsədulla Əhmədov ("Nəşri-maarif")
8. İsmayıl bəy Səfərəliyev ("Nəşri-maarif")
9. Məmməd Həsən Hacınski ("Nəşri-maarif")
10. Əliağa Həsənov ("Nəşri-maarif")
11. Ə. M. Topçubaşov ("Nicat")
12. Üzeyir Hacıbəyov ("Nicat" teatrı, "Səadət" məktəbində müəllim
13. Qurbanəli Şərifov ("Nicat" teatrı)
14. Cahangir Zeynalov ("Səfa" cəmiyyətinin aktyoru)
15. Əlibəy Hüseynzadə ("Səadət"in direktoru)
16. Şəmsi Əsədullayev – ("Nəşri-maarif", "Müsəlman Xeyriyyə cəmiyyəti")
17. Cəmo bəy Hacınski ("Müsəlman dram cəmiyyəti", təsisçi. Bakı, 1915
18. Hüseyn Ərəblinski ("Müsəlman dram cəmiyyəti", təsisçi. Bakı, 1915

19. Xudadat bəy Rəfibəyov (təsisçilərdən biri, Xudadat bəy Rəfibəyov, "Aktyorlar cəmiyyəti")
20. Eynəli Sultanov (fəallardan biri, "Müsəlman incəsənət və dram cəmiyyəti", Şuşa)
21. Nəcəf bəy Vəzirov (fəal, "Müsəlman Xeyriyyə cəmiyyətinin üzvü, 1872)
22. Əsgərağa Gorani (fəal, "Müsəlman Xeyriyyə cəmiyyəti"nin üzvü, 1872)
23. İsa bəy Hacınski (fəal, "Hidayət" təşkilatı, 1904-cü ildə yaranıb)
24. Abasqulu Kazımzadə (fəal, "Nicat" cəmiyyəti)
25. Məhəmmədəli Rəsuloğlu fəal, "Nicat" cəmiyyəti)
26. Qulam Mirzə Şərifov (fəal, "Nicat" cəmiyyəti)
27. Soltan Məcid Qənizadə (fəal, "Nicat" cəmiyyəti)
28. Əlisgəndər Cəfərov (fəal, "Nicat" cəmiyyəti)
29. Sidqi Ruhulla (fəal, "Nicat" cəmiyyəti)
30. Məmmədəli Sidqi (fəal, "Nicat" cəmiyyəti)
31. Əbdürrəhim bəy Haqverdiyev (fəal, "Nicat" cəmiyyəti)
32. Səməd Mənsur (fəal, "Səfa" cəmiyyəti)
33. Dadaş Bünyadzadə (fəal, "Səfa" cəmiyyəti)
34. Əliabbas Müznib (fəal, "Səfa" cəmiyyəti)
35. Hüseyn Ərəblinski (fəal, "Səfa" cəmiyyəti)
36. Abbas Mirzə Şərifzadə (fəal, "Səfa" cəmiyyəti)





## ƏDƏBİYYAT SİYAHISI:

### *Azərbaycan dilində:*


1. Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəniyyət quruculuğu). B., 1998.
2. Azərbaycan Qadın Ensiklopediyası. B., 2002.
3. Dünyaminqızı Q. Cümhuriyyət dövrü Azərbaycan mətbuatı (1918-1920-ci illər). B., 2005.
4. Əliyev M.Maarifçi H.Z.Tağıyev."Odlar Yurdu" 1988, N 14.
5. Hüseynov Ş. Milli haqq və ədalət axtarışında. B., 2004.
6. Hüseynov Ş. Mənəvi irsimiz və gerçəklik. B., 2004.
7. İlkin Q. Bakı və bakılıar. B., 1999.
8. Rəsulzadə M. Ə. Seçilmiş əsərləri, I cild. B., 1992.
9. Üzeyir Hacıbəyov Ensiklopediyası. B., 1997.
10. Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. B., 1989.
11. Vəliyev Ş. Füyuzat ədəbi məktəbi. B., 1993.
12. Yaqublu Məmməd Əmin Rəsulzadə. B., 1991.
13. Yaqublu N. Bakının Qurtuluşu. B., 2010.
14. Yaqublu N. "Kaspi" qəzetinin yaranması və fəaliyyəti. B., 2011.
15. Yaqublu N. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. B., 2013.

### Rus dilində:


16. Справочная книга нефтепромышленников за разные годы.
17. Статистический обзор состояния всех учебных заведения Кавказского Учебного Округа на Кавказе. Кавказский календарь на 1901 год. Тифлис, 1900.
18. Устав Бакинского Мусульманского просветительного общества «Сафа». Баку, 1910.
19. Авалов З. Д. Национальный вопрос на Кавказе. «Русская мысль», 1911, N12.
20. Алисова В. Мусульманский вопрос в России. «Русская мысль», 1909, N34.
21. Ахундов М. Ф. Избранные философские произведение. М., 1962.
22. Талыбова С. Культурно-просвотительская и благотворительная деятельность Азербайджанской буржуазии (конец XIX-XX в.) Б., 1994.
23. Керимзаде П. Меценатство в Северном Азербайджане (На рубеже XIX-XX в.). Гянджа, 2003.
24. Сеидзаде Д. Из истории Азербайджанской буржуазии в начале XX века. Б., 1978.


### Qəzetlər və jurnallar (rus dilində):


25. «Азербайджан». Газета, Баку, 1918-1919.
26. «Баку». Газета, Баку, 1900-1918.
27. «Бакинские губернские ведомости». Газета, Баку, за разные годы.
28. «Вестник Европы». Журнал, Санкт-Петербург, 1905.
29. «Кавказ». Газета, Тифлис, 1847-1885.
30. «Кавказский вестник». Газета, Тифлис, 1901.







31. «Каспий». Газета, Баку, 1893-1919.
32. «Нефтяное дело». Журнал, Баку, 1905-1907.
33. «Ниджат». Газета, Баку, 1910-1911.
34. «Русская мысль». Газета, Санкт-Петербург, 1909-1911.


### Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi:


35. Ф. 44, siy. 2, iş 1032, 1165.
36. Ф. 44, siy. 5, iş 1.
37. Ф. 45, siy. 2, iş 231, 281, 282.
38. Ф. 45, siy. 3, iş 579.
39. Ф. 46, siy. 1, iş 456.
40. Ф. 46, siy. 6, iş 567.
41. Ф. 46, siy. 2, iş 616, 66, 78, 79, 80, 83, 92, 97, 120, 127, 129, 131, 133, 134, 157, 162, 167, 173, 176, 184, 185, 186, 187, 188, 190, 191, 196, 197, 198, 199, 200, 201, 215, 218, 226, 232, 320, 395, 456, 464, 465, 467, 529.
42. Ф. 46, siy. 3, iş 11.
43. Ф. 46, siy. 4, iş 66, 188, 253, 465, 480.
44. Ф. 309, siy. 1, iş 773, 814, 835, 844, 860, 989, 996, 1131.
45. Ф. 309, siy. 6, iş 447, 563.
46. Ф. 312, siy. 1, iş 2, 3, 5, 6, 7, 8, 9, 12, 13, 14, 18, 22, 23, 50, 51, 61, 64, 65, 70, 71, 72, 74, 76, 77, 78, 79, 82, 84, 86, 91, 93, 94, 95, 96, 97, 98, 100, 101, 102, 103, 104, 108, 109, 110, 111, 112, 131, 138, 139, 145, 155, 173, 174, 176, 177, 188, 193, 194, 208, 229, 216, 265, 266, 269, 270, 271, 272, 275, 278, 279, 280, 290, 295, 303, 306, 310, 324, 329, 342, 344.
47. Ф. 314, siy. 1, iş 240, 329, 339, 347.
48. Ф. 335, siy. 1, iş 1, 2.

49. Ф. 389, siy. 3, iş 314.
50. Ф. 389, siy. 6, 290, 440, 447, 563.
51. Ф. 421, siy. 1, iş 1, 2, 3, 4, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15, 16, 17, 18, 19.
52. Ф. 498, siy. 1, iş 157.





## Mündəricat

Azərbaycanın ilk qeyri-hökumət təşkilatları ............ 3
Azərbaycanın ilk xeyriyyə təşkilatının yaradıcısı ............ 6
Azərbaycanda ilk xeyriyyə təşkilatlarinin yaranması ............ 15
Azərbaycanın aparıcı mədəni – maarifçilik cəmiyyətləri ............ 30
Azərbaycanda səhiyyənin inkişafında imkanlı iş adamlarının iştirakı ............ 45
Birinci Dünya Müharibəsi illərində zərərçəkmişlərə kömək ............ 46
Tələbələrin təhsil və xeyriyyə cəmiyyətləri tərəfindən maliyyələşməsi ............ 50
1918-1920-ci illərdə - Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərmiş xeyriyyə təşkilatları ............ 54
Azərbaycanın tanınmış milyonçu-xeyriyyəçiləri ............ 57
Azərbaycanin xeyriyyə təşkilatlarının fəal ziyalıları ............ 69
Xeyriyyə qurumlarında fəallıq göstərmiş Azərbaycan xanımları 83
İlk xeyriyyə təşkilatlarının yaradıcıları və fəalları ............ 87
Ədəbiyyat siyahısı ............ 89

# AZƏRBAYCANIN İLK QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

Dizayn: *Zahid Məmmədov*
Texniki redaktor: *Rövşanə Nizamiqızı*

Yığılmağa verilmiş **24.11.2013**
Çapa imzalanmış **05.12.2013**
Şərti çap vərəqi **5,7.** Sifariş № **589**
Kağız formatı **60x84 1/16.** Tiraj **1000**

Kitab «**Elm və təhsil**» nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail:** ***nurlan1959@gmail.com***

Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.